www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 aprel 2016-cı il Cümə axşamı № 91 (6412) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda tanınmış biznesmen özünü asdı

yazısı səh.14-də

**Gündəm**

### Qarabağ cəbhəsində gərgin gecə - düşmən yeni itkilər verdi



Azərbaycanın müdafiə naziri ön cəbhədə; rəsmi Bakı beynəlxalq aləmə çağırış etdi; Moskva ikibaşlı oyun oynayır; **politoloq:** "Rusiya həll prosesini öz nəzarətinə keçirmək istəyir"

yazısı səh.5-də

### Qarabağ münaqişəsinin həll modelləri - tarixi xronologiyanın ortaya çıxardığı sərt reallıq

yazısı səh.8-də

### Prezident "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nı təsdiqlədi

yazısı səh.2-də

### Tağı Əhmədovun susqunluğunun sirri bilindi

yazısı səh.10-da

### Azərbaycan xüsusi təyinatlılarının möhtəşəm təlimi

yazısı səh.11-də

### Bacısı Milli Qəhrəman Allahverdi Bağırov haqda yazdı

yazısı səh.3-də

### Beynəlxalq tədbirlərin ölkə üçün əhəmiyyəti...

yazısı səh.6-da

### Müxalifət cəbhə bölgəsinə niyə getmir?

yazısı səh.12-də

### Qarabağ müharibəsi Avropaya gedən mühacirlərin sayına təsir edibmi?

yazısı səh.13-də

### Ayın sonunadək hava şəraiti qeyri-sabit keçəcək, leysan yağacaq

yazısı səh.14-də

### Bərdədən Bakıya gətirilən murdar heyvan cəmdəkləri aşkarlandı

yazısı səh.2-də

## Düşməni tam və axıradək əzmək üçün tarixi şans

# ERMƏNİSTANIN APREL MƏĞLUBİYYƏTİNİN ŞOK SƏBƏBİ - BAKI ÜÇÜN UNİKAL FÜRSƏT!

İşğalçı ölkənin silahlı qüvvələrində üç istiqamətdə böhran yaşanır, onu tezliklə aradan qaldırmaq və qısa zamanda yeni ordu qurmaq mümkün olmayacaq; nüfuzlu Rusiya nəşri: "İrəvan öz demarşı ilə Rusiyanı da qəliz duruma salıb"; zaman Azərbaycana işləyir, çünki...




yazısı səh.9-da

## Kredit borcuna görə həbs Avropa Məhkəməsinə gedir

Ölkəmizin imicinə zərbə vuran bank qanunsuzluqları; ekspertlər borca görə həbsin konstitusiyaya və Avropa İnsan Hüquqları Konvensiyasına zidd olduğunu bildirirlər, ancaq...

yazısı səh.13-də



Əbdül Məmmədov

### Sərdar Cəlaloğlunun şəhid atası olan qardaşı vəfat etdi

yazısı səh.3-də



*Qabil Hüseynli:*

### "Ərdoğanın səfəri xüsusi bir mesajdır"

yazısı səh.6-da



*Onkoloq Nəsimi Qasımov:*

### "Siqaret çəkənlər, 30 yaşdan sonra evlənən qadınlar, süd verməyən analar risk altında..."

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 91 (6412) 28 aprel 2016



# Prezident "Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"nı təsdiqlədi

**Azərbaycan prezidenti İlham Əliyev "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası barədə hər il dekabrın 30-dək Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatlarını təqdim etmək, habelə Fəaliyyət Planının icrası üzrə illik iş planlarını təsdiq etmək və bu barədə məlumatı Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına elektron qaydada vermək tapşırılıb.

Nazirlər Kabinetinə tapşırılıb və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilib ki, Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini mütəmadi təhlil etsinlər və bu barədə Azərbaycan prezidentinə məlumat versinlər.

Hesablama Palatasına, Baş Prokurorluğa, İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Məhkəmə-Hüquq Şurasına, Azərbaycan Respublikasının məhkəmələrinə, yerli özünüidarəetmə orqanlarına Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək həvalə olunub.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına isə tövsiyə edilib ki, Fəaliyyət Planının icrasının dəyərləndirilməsi prosesinə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlər görsün və həmin planın həyata keçirilməsi sahəsində görülən işlər barədə ictimaiyyətə mütəmadi olaraq məlumat versin.

# Ermənistan mövqeyini dəyişdi - işğalçı ölkə danışıqlara gedir

**Ermənistan həmişə Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinin tərəfdarı olub. Musavat.com-un məlumatına görə, bunu Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan erməni mətbuatına açıqlaması zamanı bildirib.**

Ermənistan XİN başçısı iddia edib ki, İrəvanın danışıqlar prosesindən çəkilməsi iddiası Azərbaycanın arzusudur. "Bu, yalandır, Ermənistan heç vaxt danışıqlar prosesini tərk etməyib. Əksinə, biz həmişə münaqişənin sülh yolu ilə həllini dəstəkləmişik"-erməni nazir bildirib. O qeyd edib ki, Ermənistan heç zaman müxtəlif səviyyəli görüşlərdən imtina etməyib.

Nalbəndyanın iddiasına görə, əgər hansısa görüş baş tutmayıbsa, bu, "Azərbaycanın günahı səbəbindən" baş verib. Erməni nazir deyib ki, sonuncu belə hadisə Vaşinqtonda olub, hansı ki, Azərbaycan tərəfi hətta həmsədrlərlə də görüşdən imtina edib. Bakıya yönəlik digər ittihamlar da səsləndirən E.Nalbəndyanın iddiasına görə, artıq vaxt çatıb ki, dünya birliyi Azərbaycanı konstruktiv mövqeyə gətirsin.

Qeyd edək ki, Ermənistan prezidenti Serj Sərkisyan aprelin 24-də İrəvanda, öz iqamətgahında "Bloomberg" agentliyinə müsahibəsində danışıqlardan imtinasını və indiki şərtlərdə danışıqlar prosesinə qayıtmağı planlaşdırmadığını elan etmişdi. Erməni prezident "Təhlükəsizlik qarantiyası olmadan Ermənistanın sülh danışıqlarına qayıtması ağlasığmazdır. Çünki indi situasiya tamamilə başqadır. Bir tərəfdən biz haradasa danışıq aparacağıq, o biri tərəfdən hərbçilər burada münaqişəni həll etməyə çalışacaqlar?"- demişdi. Qısa müddətdə nə dəyişdi ki, Ermənistan XİN prezidentin iradəsinə "zidd" mövqe ortaya qoydu?

Hər halda, ağla gələn iki versiya var: 1.Ermənistanın son döyüşlərdə aldığı sarsıdıcı zərbələr; 2. Rusiya XİN başçısı Sergey Lavrovun 26 apreldə Nalbəndyana açdığı telelefon zəngi. Şübhəsiz ki, Moskva İrəvana yeni təlimatlar verib. Görünən budur ki, son iki gecə sarsıdıcı artilleriya zərbələrinə tuş gələn işğalçı ölkə Azərbaycanla döyüş meydanında bacarmadığını anlayıb "danışıqlara davam" qərarı verib.

❑ Cavìd TURAN

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Azərbaycanın "cəhənnəm silahı" Sərkisyanın generallarının "başını yedi"

**Ermənistan prezidenti Serj Sərkisyanın ötən gün aprelin 26-da Müdafiə Nazirliyinin rəhbərliyində cəza tədbirləri həyata keçirməsinin və üç generalı işdən qovmasının səbəbi məlum olub.**



Virtualaz.org xəbər verir ki, "Kommersant" qəzetinə məlumat verən mənbə Müdafiə Nazirliyinin rabitə xidmətinin rəisi, general Komitas Muradyanın və baş qərargahın kəşfiyyat idarəsinin rəisi, general Arşak Karapetyanın işdən azad edilməsinin səbəbi Azərbaycan silahlı qüvvələrinin aprelin əvvəllərindəki 4 günlük müharibə zamanı TOS-1A "Solntspyok" ağır odsaçan sistemindən erməni qüvvələrinin Cəbrayıl rayonu ərazisindəki qərargahına endirdiyi zərbədir. Həmin zərbə zamanı erməni ordusunun generalları və polkovnikləri, o cümlədən xeyli əsgəri məhv edilib. Lakin düşmən tərəf bu günə qədər həmin itkiləri gizlədir.

Qəzetin yazdığına görə, general Arşak Karapetyan işdən ona görə qovulub ki, Ermənistan rəhbərliyini Azərbaycan ordusunun təmas xəttinə TOS-1A "Solntsepyok" odsaçan sistemini yeritdiyi haqda vaxtında xəbərdar edə bilməyib."Bu silahın tətbiqi nəticəsində erməni hərbçiləri ciddi itkilər veriblər"-mənbə bildirib.

Habelə odsaçanların zərbəsi nəticəsində xeyli hərbçi ağır yanıq xəsarətləri alıb. Lakin məlum olub ki, Dağlıq Qarabağın xəstəxanalarında yanıq əleyhinə dərman vasitələri yoxdur. "Kommersant" yazır ki, nəticədə yanıq əleyhinə dərman vasitələrini təcili qaydada Moskvadan xüsusi təyyarə ilə gətirmək lazım gəlib. Müdafiə nazirinin müavini, general Alik Mirzəbekyanın isə "ordunun təchizatında yol verilmiş səhvlərə görə" işdən çıxarıldığı bildirilir.

Rabitə xidmətinin rəisi, general Muradyanın isə aprelin əvvəllərində gedən döyüşlər zamanı "rabitə qoşunlarında yaranmış problemlərə" görə qovulduğu məlum olub.

Xatırladaq ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı videokadrlara əsasən ermənilərin Cəbrayıldakı qərargahına cəmi iki odsaçan raket zərbəsi endirilib. Virtualaz.org hərbi qaynaqlardan dəqiqləşdirib ki, həqiqətən zərbələrin sayı iki olub. TOS-1A "Solntspyok" düşmən qərargahını vurduqdan sonra atəş nöqtəsini tərk edib.



# Dollar kreditləri ilə bağlı problemlər öz həllini tapa bilər

**Millət vəkilləri dollar kreditləşməsi ilə bağlı yeni təkliflər planı hazırlayıb. İqtisadçıların fikrincə, hazırkı vəziyyət uzun müddət davam edərsə iqtisadi aktivlik azala bilər. Bunun nəticəsi olaraq həm əhali, həm də banklar daha çox ziyan görə bilər.**

Bu barədə ANS-ə millət vəkili Vahid Əhmədov öz müsahibəsində danışıb.

"Biz təklif edirik ki, yaranmış problem yükünün bir hissəsini banklar, bir hissəsini dövlət qurumları, bir hissəsini dollarla kredit götürən vətəndaşlar, bir hissəsini də Mərkəzi Bank üzərinə götürsün.

Beləcə dördbucaq yaransın. Məsələn, əgər kredit götürən şəxs rəhmətə gedibsə, bu borc zaminin üzərində qalmasın. Ən yaxşı yol o krediti bağlamaqdır. Bundan əlavə, 5 min dollara qədər olan dollarla kreditlər, 1 manat 5 qəpiklə qaytarılsın"-deyə millət vəkili bildirdi.







# Bakıda "Şahin" hərbi-idman yarışları keçirilir

**Nəsimi rayonunda Gənclər İdman İdarəsinin təşkilatçılığı ilə məktəblərarası "Şahin" hərbi-idman yarışları keçirilir. Yarışda Bakının 28 komandası iştirak edir. Məktəblilərə hərbi komandalar verilir, onların hazırlıqlıqları yoxlanılır. Sonda ən yaxşı hərbi təlim və tapşırıqları yerinə yetirən komandaya mükafat veriləcək. Məktəblər birincilik uğrunda mübarizə aparacaqlar.**

Qeyd edək ki, hərbi yarışı Nəsimi Rayon İcra Hakimiyyətinin və idman idarəsinin nümayəndələri də izləyir.

❑ Məğrur MƏRD

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Zakir Həsənov cəbhə bölgəsindəki komandirlərə göstəriş verdi

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu zonada yerləşən birliyin komandir heyəti və digər məsul zabitlərin iştirakı ilə toplantı keçirib.**

Musavat.com xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Toplantıda hazırkı əməliyyat şəraiti, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi, onun hərtərəfli təminatı və bir sıra digər xidməti məsələlərlə bağlı müdafiə nazirinə məruzələr edilib.

Müdafiə naziri, general-polkovnik Z.Həsənov ərazinin çətin relyefi və xüsusiyyətləri nəzərə alınmaqla şəxsi heyətin döyüş hazırlığına diqqətin daha da artırılması, döyüş növbətçiliyinin aparılmasında sayıqlığın gücləndirilməsi, verilən döyüş tapşırıqlarının istənilən anda, dəqiq və vaxtında yerinə yetirilməsi ilə əlaqədar komandir və rəis heyətinə müvafiq göstərişlər verib.

# Bərdədən Bakıya gətirilən murdar heyvan cəmdəkləri aşkarlandı

**Aprelin 26-da alınmış məlumat əsasında DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin əməkdaşları Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) mütəxəssislərinin iştirakı ilə mənşəyi məlum olmayan, baytarlıq-sanitariya cəhətdən keyfiyyəti və təhlükəsizliyi şübhə doğuran ət və ət məhsullarının satışının qarşısını almaq məqsədilə reyd keçirilib. DBNX-dən APA-ya verilən məlumata görə, reyd zamanı Bərdə rayonundan paytaxta gələn Mustafayev Ramin Fuad oğlunun idarə etdiyi "Mercedes C-230" markalı 99 FL 619 dövlət nömrə nişanlı avtomobil Qaradağ rayonunda DYP postunda saxlanılıb və baxış keçirilib.**

Baxış zamanı minik avtomobilində 140 kq miqdarında mənşəyinə və keyfiyyətinə dair heç bir baytarlıq sənədi olmayan heyvan cəmdəkləri aşkar olunub.

Cəmdəklərdən baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək qida üçün yararlı olub-olmamasının, bakterioloji və biokimyəvi göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə Respublika Baytarlıq Laboratoriyasına (RBL) göndərilib.

Laboratoriyanın ekspertizasına əsasən yoxlanılan 6 nümunə heyvan ətində aparılan bakterioloji müayinə zamanı nümunələrdə bakterioloji çirklənmə (BÇQB, stafilakokkus, aureus) aşkar olunub. Biokimyəvi müayinələr (pH, peroksidaza və göydaş reaksiyaları) zamanı isə ətlərin keyfiyyətsiz və baytarıq-sanitariya cəhətdən yararsız olması müəyyən edilib. Eləcə də müayinə zamanı Bərdə rayonundan Bakı şəhərinə gətirilən ətlərin aqoniya vəziyyətində və öldükdən sonra kəsilmiş iribuynuzlu heyvanların ətlərinin olması aşkar olunub.

Laboratoriya müayinələrinin nəticəsinə uyğun qəbul edilmiş qərara müvafiq olaraq Bərdə rayonundan gətirilən ətlər baytarlıq-sanitariya tələblərinə uyğun zərərsizləşdiriləcək.

YENİ MÜSAVAT
N 91 (6412) 28 aprel 2016



# 70 yaşlı qoca qartal

## Bacısı Milli Qəhrəman Allahverdi Bağırov haqda yazdı

***Sənsiz keçən ömür vallah hədərdi***
***Sənsiz qismətimiz qəmdi, kədərdi***
***Çəkə bilmir ürək daha bu dərdi***
***Sənsən qibləgahım, imanım, qardaş.***

Sən dünyaya qartal olaraq gəlmişdin. Qartalların məskəni uca dağlar başı olub. Onlar həmişə səmalarda cövlan edib, göylərdə süzüb. Kim onların qocaldığını, əldən düşdüyünü görüb? Sənin də, qartallar kimi, nə qocaldığını görən oldu, nə də əldən düşdüyünü.

Qoca qartal, sən yenə də göylərdəsən. Sağlığında olduğu kimi çoxları adını çəkməyə qorxur.

Aprelin 22-də Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Teymur oğlu Bağırovun doğum günü idi. 70 yaşı tamam oldu. Belə yaşına, belə yoluna, bu ucalığına, vətən məhəbbətinə anan qurban, qardaş. Çünki heç kim ana kimi saf, təmiz qurban ola bilməz. Biz qurban ola bilmədik. Bizim sənə qurban olum deməyimiz yalan imiş, söz imiş. Qarabağ müharibəsi hər şeyimizi əlimizdən aldı, birincisi də səni, sizi.

Müharibə iştirakçıları yaxşı bilirlər ki, müharibə kinolarda olduğu kimi maraqlı və asan olmur. Həm də müharibə qorxaqların, iradəsizlərin işi deyil. Düşmən gülləsinə sinə gərmək üçün dəniz iradən, döyüşkən ruhun və ən əsası köksündə vətən sevgisi ilə döyünən ürəyin olmalıdır.

Qarabağ müharibəsində 10 minlərlə belə cəsur oğullar düşmən üstünə yeridilər. Gözlərini qırpmadan, canlarını əsirgəmədən döyüşə girdilər.

Atamın 3 oğlu da birincilər sırasında döyüşə getdi. Hər bir müharibə iştirakçısının həyatı ayrıca bir romanın, ayrı-ayrı qəhrəmanların həyatları tarixi əsərlərin mövzusudur. Elini, obasını, xalqını, millətini sevən ər igidlər vətəni təcavüzkar düşməndən qorumaq üçün yollandılar. "Arxada Vətəndir" - deyib, özlərini güllə qabağına atdılar və müharibədən qayıtmadılar. Müharibə, nə dəhşətlisən; sonu görünməyən bu müharibə 7 başlı əjdahadan da, adamyeyəndən də betərdir. Şəhərləri, kəndləri viran qoydu, anaları oğulsuz, bacıları qardaşsız, gəlinləri ərsiz, uşaqları yetim qoydu. Hər nədirsə ağıllı hesab edilib, dünyanın idarə edilməsi həvalə olunan "başbilənlərin" fitnə-fəsadlarından yaranır. Məqsədləri nədir, görəsən, "başbilənlərin"?

Müharibə milyonlarla insan kimi məni də kül elədi. Elə qardaşlar itirdim ki, hər biri bir dünyadı mənim üçün.

Qışda 50 dərəcə şaxtada donan, yayda ocaqda yanan mənim kimi olmadı. Bu dünyanın bütün dəhşətlərini gördüm. Düşməni yansın külə dönsün, havadarları ilə birlikdə.

Bir qardaş itirdim - adı Eldar. Böyük ürəkli, insanları sevən, üzü gülər, verən əlli, bol çörəkli, qoynu-qoltuğu dolu, hamıya mehriban, ata-ana qayğılı, Vətən məhəbbətli, körpə balalı qardaşım mənim. Zəhmətini itirənlərin zəhməti itsin bu dünyada. O biri dünyaya qalmasın.

Bir qardaş itirmişəm, igidlərin xası, uca boylu, ala gözlü, aslan biləkli, gen sinəli, gedəndə boyu gözəl, çönəndə üzü gözəl, sözü bir, amalı bir, hər ataya qismət olmayan, hər ananın doğmadığı, çox danışmağı sevməyən, bir az hövsələsiz, qorxu nə olduğunu bilməyən, dostu özündən çox, həm də lap çox sevən, oddan iti, ipəkdən yumşaq atam oğlu qardaşım mənim. Allahverdi qardaşım. Mən bu dünyaya xoşbəxt doğuldum, sənin bacın olduğum üçün. Sizdən sonra dünyanın ən bədbəxti mən oldum. Sənsiz, sizsiz qaldığım üçün. Üçünüzdən birinizin çiyni mənə qismət olmadı - öləndə yerdən götürmək üçün.

Allahverdi qardaşım, getdiyin yola, boyuna, gözəl adına, tapmadığım ayaq izinə mən bacın qurban. Ehtiyacım qardaş. Yanınca getmək, əlindən tutmaq, üzündən öpməyə qıymayıb aradabir paltarın üstündən öpəm. Sən də tələsik deyirdin "ayə, bu dəlidir, camaat baxır, neyləyirsən". Mən də dəli tərsinə səni bir də qucaqlayam. Eldar da gülə-gülə deyə "ayə, dəymə, qoy qucaqlasın" - mənim də ürəyim dağa dönə.

Allahverdi, mən bilməzdim dünya nədir, mənim dünyam səni idin, sizi idiniz. Söylə, mən yerin altındayam, yoxsa üstündə. Düz 24 ildir səni tapmıram. Səni itirəndə 46 yaşın var idi. İndi deyirlər 70 yaşın olur. Belə yaşına, o hünərli, hökmlü, çox qızdan sonra səni tapan, heç oğul toyu görməyən, sizi itirdiyi üçün dağdan ağır yükü olan atan qurban, qardaş. Qardaş, Allahverdi, bu yaşında getdiyin o müqəddəs yol qurban. Uğurunda can verdiyin Qarabağın qurban, torpağına qanın tökülən Ağdamın qurban. O Ağdam ki, səndən sonra xarabazara çevrildi, daşı daş üstündə qalmadı, düşmənə əsir düşdü.

Qardaş, sənin bu 70 yaşın harda olur, harda keçir? Adın harda, necə anılır? Bir rayon təşkilatındamı, bir məktəbdəmi, icra aparatındamı, bəlkə bir televiziya kanalında, harda? Milli Qəhrəmanı kim yad edir? Bizim kimimiz var ki? Heç kimə, heç nəyə gücüm çatmır, özüm qurban bu yaşına, qardaş, gözü yollarda qalan mən bacın qurban.

***Həsrətdən inləyir könlümün simi***
***Dağlar da çəkəmməz bu dərdi, qəmi***
***Eldə qardaşımı qaytarın mənə***
***Dədəmin oğlunu qaytarın mənə.***
***Tərsinəmi axır dəyirman arxı***
***Dayanıb fırlanmır dünyanın çarxı***
***Deyəsən, mən nəsə deyirdim axı***
***İgid qardaşımı qaytarın mənə.***

Tam əminliklə deyirəm, Qarabağ müharibəsinin ən böyük qəhrəmanı Allahverdi Bağırov oldu. Çünki o dövrdə Azərbaycan dövlətinin rəhbərlərinin, BMT-nin, Avropa Şurasının və digər beynəlxalq təşkilatlarını etmədiyi işlərin öhdəsindən Allahverdi Bağırov gəldi. Yüzlərlə insanın həyatını xilas etdi. Mindən artıq Xocalı sakinini əsirlikdən azad etdi. Girov götürülmüş insanların meyitlərinin ermənilərdən alınmasına nail oldu. Bu gün qohum deyib bir-birinin əlindən tutan, oğul evləndirib, qız köçürən Xocalı sakinləri Allahverdi Bağırova həyatları boyu minnətdar olmalıdırlar. Ancaq bu gün televiziya kanallarına müsahibə verən keçmiş girovlar belə deyirlər - bizi aldılar, bizi dəyişdilər. Niyə demirsiz Allahverdi bizi o dəhşətdən qurtardı?

Bütün bu işləri öz gücü ilə gördü. Eyni zamanda qardaşlarım münaqişənin ilk günündən ta həlak olana qədər hadisələrin mərkəzində oldular. Eldar, Allahverdi vətənpərvər oğulları bir yerə topladılar. Haqqı tapdalananları müdafiə etdilər. Silah aldılar. Ermənilərlə qonşu kəndlərdə yaşayan insanlara payladılar. Elə yerlər oldu ki, 3-4 kəndin harayına getdilər *(Umudlu, Cinli, Qalayçılar, Güney Pəyə)*. Camaat onların və onlar kimi oğulların hesabına evlərində yaşaya bildi. İndi çoxları Qarabağ müharibəsi veteranı olub. Halbuki ilk münaqişə başlayandan qoyub qaçmışdılar. Eldarın qətlindən sonra onun yaratdığı AXC Ağdam rayon şöbəsinə Allahverdi özü başçılıq etdi. Eldarın başladığı işi o davam etdirdi, yarımçıq qoymadı.

Allahverdi Teymur oğlu Bağırov 22 aprel 1946-cı ildə anadan olub. 5 qızdan sonra Allah bizlərə bir qardaş bəxş etdi. Ağdam şəhər 1 saylı orta məktəbini bitirmişdi. Yeniyetmə vaxtlarında yüngül atletika ilə məşğul olmuşdu. Sonralar futbola keçdi. Möhkəm iradəli, qorxu nə olduğunu bilməyən, həmişə qələbəyə can atan bir şəxsiyyət kimi böyüdü. Uzun illər Ağdamın "Qarabağ" futbol komandasında müdafiəçi oldu. Əvvəllər futbolda müdafiəçi, sonralar isə Vətənin müdafiəsinə qalxdı. Komandanın problemlərinin həll olunmasında böyük rol oynadı.

***Həmişə sözü böyük oldular***
***Allahverdi dedi - saman düşdü.***
***Dedilər - zaman dağıldı.***

Elə cavanlıqdan sözü üzə deyən idi. Çox təəssübkeş idi. Təkcə Xocalı müsibəti zamanı Allahverdinin göstərdiyi rəşadət cild-cild kitabların mövzusu ola bilər. Hələlik yazan yoxdur.

3 gün ərzində təkcə Xocalıdan 613 meyit aldı. 1000-dən artıq əsir düşmüşlərin azad edilməsi Allahverdinin hünəri hesabına baş tutdu. Bütün bu əziyyətlər Allahverdinin yuxusuz gecələri və şəxsi təşəbbüsü hesabına baş tutdu. 1992-ci ilin 12 iyununda Ağdamın özünümüdafiə batalyonları ermənilər üzərinə irimiqyaslı hücuma keçdi. 4 saat ərzində 5 kəndi alıb Əsgərana qədər gedib çatmışdılar. Amma Allahverdinin ölümü hər şeyi yarımçıq qoydu. Uğurlu əməliyyatı başa çatdırıb Ağdama qayıdan Allahverdi içində olduğu UAZ-469 markalı maşının yola basdırılmış tank əleyhinə minaya düşməsi nəticəsində sürücüsü Əmir Mirzəyevlə birlikdə həlak oldu. Bununla çırağımız söndü, yurdumuz talandı.

Allahverdinin ölümü təkcə biz və ağdamlılar deyil, ümumilikdə Qarabağ üçün, hətta Azərbaycan üçün çox böyük itki oldu. Müharibənin çox gərgin və həlledici məqamında Allahverdisiz qalan Azərbaycan ordusu ən möhkəm sütununu itirdi və bu, müharibənin gedişinə çox böyük mənfi təsir göstərdi. Allahverdinin ən böyük arzusu döyüşə-döyüşə Xankəndinə daxil olmaq və Azərbaycan bayrağını Xankəndinin ən uca yerinə sancmaq idi. Bir də Allahverdinin bir nisgili var idi - Eldarın balalarını böyütmək.

***Qardaş, fəxrimsən, ucalığımsan***
***Arxamsan, köməyimsən, qiymətlimsən***
***Ən böyük olanı Vətənimsən, Allahverdi Bağırov, atam oğlu.***

❑ **Almaz BAĞIROVA**

> **"Qartal kimi yaşadın, dağ başında, ucalarda - nə qocalığını görən oldu, nə əldən düşdüyünü"**




# Oğlu bir neçə gün öncə şəhid olan döyüşçü vəfat etdi




**ADP sədri Sərdar Cəlaloğlunun qardaşı, şəhid atası Əbdül Məmmədov dünyasını dəyişib. Teleqraf.com xəbər verir ki, bu haqda məlumatı ADP funksioneri Həsrət Rüstəmov yayıb. Rüstəmov bildirib ki, hazırda çox acı xəbər alıb: "Cox üzüçü bir xəbər aldım. Şəhid atası, qazi, könüllü müdafiə batalyonunun sabiq komandiri Əbdül Məmmədov bu gün Allahın dərgahına qovuşub".**

Əbdül Məmmədov ötən əsrin 90-cı illərində Naxçıvan uğrunda gedən döyüşlərdə fədakarlıq göstərib. Dəfələrlə şəxsi şücaəti ilə diqqət mərkəzində olub. Döyüşlər zamanı yaralanıb və birinci qrup əlil olub. Vətən torpaqlarının müdafiə olunmasında iki ayağını qurban verən Əbdül Məmmədov son dövrlər böyrək çatışmazlığından əziyyət çəkirdi. Aprelin 2-5-də cəbhədə gedən döyüşlər zamanı Əbdül Məmmədovun oğlu Rasim Məmmədov şücaət göstərmişdi. Zabit qismində Lələtəpə yüksəkliyinin ermənilərdən alınması uğrunda döyüşən zabitimiz şəhidlik zirvəsinə yüksəlmişdi. Rasim Məmmədovun 40 mərasimi çıxmamış Əbdül Məmmədovun vəfatı sarsıdıcı və çox ağır xəbərdir.

YENİ MÜSAVAT
N 91 (6412) 28 aprel 2016





# "Azərbaycanın da yerləşdiyi regionda zorakılıq, ekstremizm sürətlə yayılmaqdadır"

## Mehriban Əliyeva: "Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda, gələcəyimizə çox nikbinliklə yanaşırıq"

**Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində aprelin 27-də keçirilən "Sosial inteqrasiya sahəsində qabaqcıl metodlar" mövzusunda ikinci plenar iclasın açılışında Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxış edib.**

**APA-nın məlumatına görə, M. Əliyeva forumun dialoqa, qarşılıqlı anlaşmanı gücləndirəcəyinə töhfə verəcəyinə inandığını bildirib. O deyib ki, bəzi hallarda insanların cəmiyyətlərdən təcrid olunması müşahidə edilir:** "İnsanların adaptasiyası müxtəlif cəmiyyətlərdə fərqli yollar tələb edir. Bu gün mən sizinlə ölkəmizin təcrübəsini bölüşmək istəyirəm. Biz 25 illik müstəqillik dövrü keçmişik. İqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmişik. Elm və mədəniyyət sahəsində islahatlar aparılıb. Bu irəliləyiş tariximizin bu dövründə xalqımızın üzləşdiyi böyük çətinliklərə baxmayaraq, əldə edilib. SSRİ-nin süqutundan sonra ölkə böyük iqtisadi-sosial çətinliklərlə üzləşdi, torpaqlarımızın bir hissəsi işğal olundu. Ermənistanın işğalı nəticəsində 900 məntəqə, 693 məktəb, 975 bağça, 695 xəstəxana dağıdılıb, 40 mindən artıq unikal muzey materiallarını itirmişik. Azərbaycana vurulan zərbəni təsəvvür etmək çətindir. Həmin çətin anlarda bizimlə birlikdə olmuş BMT qurumlarına təşəkkür edirəm".

**M.Əliyeva BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etdiyini xatırladıb:** "Həmin dövrdə 7 milyon əhalisi olan və resursları olmayan ölkə 1 milyon qaçqın və məcburi köçkün problemini həll etməli idi. Biz ən vacib zənginliyimizi qoruyub saxladıq, bu da insan kapitalı idi. Hətta qaçqın düşərgələrində musiqi məktəbləri fəaliyyətini davam etdirirdi. Rastropoviç 1990-cı illərdə Azərbaycana səfər edir, qaçqın və məcburi köçkün uşaqlar üçün ustad dərsləri təşkil edirdi. Məktəblərdə dərs gedir, xəstəxanalar fəaliyyət göstərirdi. Bu, ən yaxşı sosial adaptasiya üsulları idi. Biz bütün çadır düşərgələrini ləğv etdik, qaçqın və məcburi köçkünlər üçün müasir qəsəbələr yaratdıq. Gənc nəsil müasir təhsilə də çıxış əldə edib. Amma bu, müvəqqəti müalicədir, çünki insan qaçqındırsa, heç bir şərait doğma yeri əvəz edə bilməz. Bu problemin həllini tapması, işğal olunmuş torpaqların azad edilməsi, insanların evlərinə qayıtması lazımdır. Qaçqın və məcburi köçkünlər nəinki fiziki itkilərə məruz qalırlar, qəlbləri mənəvi zərbələrə də məruz qalır. Dünyada yeni münaqişələrin yaranmamasına çalışmalıyıq. Mərhəmət insan əzab-əziyyətinin aradan qaldırılmasında real vasitə olmalıdır".

**M.Əliyeva Heylər Əliyev Fondunun layihələrindən də danışıb:** "Biz 2005-ci ildə məktəblərin əsaslı təmirinə başladıq və QHT, dövlət və şirkətlər arasında yaxşı əməkdaşlıq modeli yaratdıq. Nəticədə bu gün mövcud olan 5 min məktəbdən 3 mini əsaslı təmir olundu. Digər tərəfdən, Heydər Əliyev Fondu bütün vətəndaşlar üçün bərabərlik imkanları gətirməyə çalışdı. Valideyn himayəsindən məhrum qalmış uşaqlar üçün binalar tikilib və onların sosial inteqrasiyasını təmin etmişik. Hazırda Azərbaycanda 570 min əlil var, onların 67 mini uşaqdır. Bu insanlar cəmiyyətə inteqrasiyada problemlə üzləşirlər. İnklüziv təhsil əlil uşaqların cəmiyyətə inteqrasiyasında çox mühümdür. Hazırda 366 əlil uşaq inklüziv təhsil alır. Kor uşaqların informasiya texnologiyalarına çıxışı çərçivəsində müasir İKT mərkəzi yaratmışıq. Oxşar layihəni Bosniya və Herseqovina paytaxtında da həyata keçirmişik. Heydər Əliyev Fondu Macarıstanda katolik kilsəsi üçün bina tikib. Həmçinin Romada qədim katakombaların təmirində iştirak etmişik. Heydər Əliyev Fondu Fransada da müqəddəs yerlərin bərpasında iştirak edir. Luvr muzeyində İslam Mədəniyyəti Mərkəzinin açılmasında iştirak etmişik".

**M. Əliyeva tolerantlıq və multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu vurğulayıb:** "Azərbaycanda müxtəlif dini icmalar tolerant şəkildə yaşayırlar. Ən mühüm nailiyyətlərdən biri Azərbaycan cəmiyyətində yüksək sosial tolerantlığın olmasıdır. Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda, gələcəyimizə çox nikbinliklə yanaşırıq. Tanınmış alim Albert Şteyn deyib ki, hər hansı fərdin həyatı o zaman məna daşıyır ki, başqa bir canlının həyatını mənalı etsin".







## Əli Həsənov: "Bəzi media vasitələri Dağlıq Qarabağ münaqişəsinə sivilizasiyaların toqquşması və ya "xristian qardaşlığı" kontekstində yanaşır"

Dünən forum çərçivəsində "Mətbuat peşəkarlığı: Zorakı ekstremizmin təbliğatına qarşı müqavimətin təşkili üçün vasitələr" mövzusunda bölmə iclası keçirilib.

İclasın moderatoru, Media və Öyrənmə Assosiasiyasının baş icraçı direktoru Sally Reynolds təhlükəsizlik sahəsinə yönəldilən vəsaitlərin təhsil sahəsinə yönəldilməsinin daha effektiv nəticə verəcəyinə inandığını bildirib.

**UNESCO-nun proqram mütəxəssisi Alton Grizzle deyib ki, KİV tənqidi məlumatları təhlil edərək cəmiyyətə çatdırmalı, sosial təbliğatla məşğul olmalıdır. Rod Adaları (Rhode Island) Universitetinin professoru Rene Hobbs təbliğatın mənfi və müsbət istiqamətdə aparıla biləcəyini söyləyib:** "Əsas odur ki, uşaqlar bu təbliğatın müsbət, yaxud mənfi xarakterli olduğunu qiymətləndirə bilsinlər".

**Tennesse Universitetinin professoru Sanjay Asthana media sahəsində müstəqil tədqiqatçılara ehtiyac olduğunu qeyd edib:** "Avropaya miqrasiyaya gələn insanlar arasında təlim aparılmalıdır".

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycanın da yerləşdiyi regionda zorakılıq, dini dözümsüzlük və ekstremizmin sürətlə yayılmaqda olduğunu vurğulayıb:** "Bugünkü sessiyada zorakı ekstremizmin təbliğatına qarşı müqavimətin təşkilində medianın rolunu müzakirə edirik. Çox təəssüflə qeyd etməliyik ki, münaqişənin təsirinə məruz qalmış ölkələrdə media yanlış istiqamətdə yönəldilir. Media ekstremizmin, zorakılığın və irqi ayrı-seçkiliyin bir hissəsinə çevrilir. Bəzi hallarda bu, birərkdən siyasi rejimlər tərəfindən edilir, bəzi hallarda isə qeyri-peşəkarlığın nəticəsi kimi qiymətləndirilə bilər. Mədəniyyətlərarası dialoqun və tolerantlığın təbliğ edilməsində media ən effektiv vasitədir. Bəzi hallarda dünyanın aparıcı media vasitələri də münaqişələri işıqlandırarkən düşmən imicinin yaradılması trendinin təsirinə məruz qalır. Bu, ötən 20 il ərzində keçmiş sovet ölkələrində baş verən müxtəlif münaqişələrə media vasitələrinin fərqli yanaşması ilə bir daha özünü büruzə verir. Əgər başqa münaqişələr itirilmiş ərazilərin azad edilməsi, milli suverenliyin bərpa edilməsi kontekstində təqdim olunursa, bəzi media vasitələri Dağlıq Qarabağ münaqişəsinə sivilizasiyaların toqquşması və ya "xristian qardaşlığı" kontekstində yanaşır. Biz burada işğalçıya bəraət qazandırma cəhdlərini görürük. Münaqişənin təşəbbüskarı "qurban", lakin münaqişənin qurbanı olmuş tərəf təcavüzkar kimi təqdim edilir".

**Ə. Həsənov bildirib ki, Ermənistan mediası nifrət ritorikasından istifadə etməklə islamofobiya və türkofobiya təbliğatı aparır:** "Ermənistan mediası Azərbaycanı ləkələmək və işğalı qanuniləşdirmək istiqamətində təbliğatla məşğuldur. Ermənistanın keçmiş və hazırkı prezidentləri, Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətlərinin rəhbərləri azərbaycanlılarla ermənilərin birgə yaşayışının qeyri-mümkünlüyü barədə beynəlxalq tribunalarda bəyanatlar verirlər. Onlar buna görə tənqid olunmur və ya pislənmir".

**O bildirib ki, bu gün müstəqil jurnalistikadan danışılsa da, transmilli və digər media orqanları sahibkarlıq, sosial, milli maraqların daşıyıcısıdır:** "Postsovet məkanındakı münaqişələrdə bu, özünü göstərir ".

**Ə. Həsənov deyib ki, vahid jurnalistika kodeksi qəbul edilməlidir:** "Nə qədər ki, beynəlxalq səviyyədə belə bir sənəd qəbul edilməyib, vəziyyət belə də qalacaq. Məsələn, Azərbaycan tolerant cəmiyyətdir və bunu təbliğ edir. Ermənistan mediasında isə Bakı Bəyannaməsinin qəbul edilməməsinə dair çağırışlar yer aldı. Ona görə də elə etmək lazımdır ki, BBC, CNN, digər transmilli media orqanları və Azərbaycan mediasında çalışan jurnalistlər məsələlərə vahid prinsipdən, vahid kodeksdən yanaşsınlar. Düşünürəm ki, Azərbaycan jurnalistikası forumda təbliğ edilən ideyalardan istifadə edəcək. Azərbaycan bəşəri ideyaların, plüralist medianın yayılmasının tərəfdarıdır".

**"Bu forumda iştirak etmək mənim üçün həqiqətən çox maraqlı idi. Müzakirələr zamanı maraqlı mövzulara toxunuldu. Onlardan biri də inklüziv cəmiyyət mövzusu idi".**

**APA-nın məlumatına görə, bunu ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu ilə bağlı fikirlərini bölüşərkən deyib. Səfir zorakı ekstremizmə qarşı fəaliyyətlərin də müzakirə mövzusu olduğunu diqqətə çatdırıb:** "Müzakirələr zamanı gənclərin, qadınların cəmiyyətdə rolu, iqtisadi təsirlərdən də danışıldı. Mədəniyyətlərarası mükafatın təqdimatında da iştirak etdim. Çox şadam ki, bu mükafatçıların alıcısı sırasında ABŞ təmsilçiləri də olub. Bu, bir qrupdur. Dünyanın müxtəlif yerlərində - Qana, Keniya kimi ölkələrdə səbətlər hazırlanır. Bu qrup bu səbətlərin satılmasına kömək edir. Bu qrup alıcılar və satıcılar arasında əlaqələrin yaradılmasına yardım edir".

**Aprelin 27-də Bakıda keçirilən BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun bağlanış mərasimi keçirilib.**

**Mərasimdə çıxış edən alyansın ali nümayəndəsi Nasir Əbdüləziz əl Naser bildirib ki, forum işini uğurla yekunlaşdırıb:** "Azərbaycan hökuməti ilə apardığım əməkdaşlıqdan qürur duyuram. Gözəl təşkilatçılığa görə hamınıza, alyansın həmtəsisçiləri İspaniya və Türkiyəyə təşəkkür edirəm".

Alyans rəsmisi Məşvərət Şurasının işinin başlamasını rəsmi qaydada elan edib. O bildirib ki, şura siyasi, dini, vətəndaş cəmiyyəti və akademik sahənin ali nümayəndələrindən ibarət olacaq və alyans üçün tövsiyələrlə çıxış edəcək. O həmçinin inklüzivlikdə idmanın rolunu da qeyd edib.

**Azərbaycanın mədəniyyət və turizm naziri, forumun təşkilat komitəsinin rəhbəri Əbülfəs Qarayev Azərbaycan adından BMT Sivilizasiyalar Alyansının forumunun Bakıda keçirilməsinə dair qərarına görə təşəkkür edib:** "Bu qərar Azərbaycanda tolerantlıq, birgəyaşama dəyərlərinə olan münasibətin təzahürü idi. Artıq bilirik ki, tək deyilik, beynəlxalq ictimaiyyət bizim gördüyümüz işlərə yardımçıdır".

**Əbülfəs Qarayev deyib ki, forumda 147 ölkədən 1500 nəfər iştirak edib. Ümumi qeydiyyatdan keçənlərin sayı 4300-dən çoxdur:** "Könüllüləri də daxil etsək, forumun işində 6 mindən çox insan iştirak edib. Tədbiri işıqlandıran 120 kütləvi informasiya vasitəsinə minnətdarlığımı bildirirəm. Bakı prosesi davam edəcək. Bu, ölkə prezidenti tərəfdən yaradılmış tendensiyadır".

YENİ MÜSAVAT
N 91 (6412) 28 aprel 2016

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində ölkəmizə səfəri və dövlət başçısı İlham Əliyevlə təkbətək görüşü gündəmin əsas müzakirə olunan məsələlərindəndir.**

# "Ərdoğan Ermənistanın ifşası üçün əlindən gələni edəcək"

## Azərbaycan və Türkiyə prezidentlərinin görüşünün sirli məqamları; **Qabil Hüseynli:** "Ərdoğanın səfəri xüsusi bir mesajdır"



İlham Əliyev-Ərdoğan görüşü barədə ictimaiyyətə geniş məlumat verilməsə də, əksər ekspertlər görüşün əhəmiyyətindən və Azərbaycan üçün faydasından danışırlar. Heç şübhəsiz ki, bu görüşdə əsas müzakirələrdən biri Azərbaycan-Ermənistan arasında cəbhə xəttində baş verən gərginlik olub. Eyni zamanda Türkiyənin Rusiya ilə davam edən soyuq münasibətlərinin də hər iki ölkə başçısı tərəfindən müzakirəsi sirr deyil. Müstəqil politoloqlar Ərdoğanın Bakı səfərinin ən uyğun vaxta təsadüf etdiyini vurğulayırlar. Bir növ bu səfərlə Azərbaycan və Türkiyə prezidentlərinin dünyaya bir mesaj göndərdikləri də qeyd olunur.

**Politoloq Qabil Hüseynli də hesab edir ki, Türkiyə rəhbərinin Bakı səfəri ən münasib vaxta təsadüf etdi:** "Azərbaycan prezidenti də Türkiyənin ən çətin durumunda, yəni terror hadisəsindən sonra oraya səfər etmişdi. Ərdoğanın səfəri isə düşmənlə ən ağır döyüşlər apardığımız vaxta təsadüf etdi. Düşünürəm ki, bu, həm Azərbaycan xalqına, həm də dövlət rəhbərliyimizə dəstək xarakteri daşıyır. Çünki ruslar onsuz da hesab edirlər ki, 4 günlük savaşın başlanmasında Türkiyə təhrikedici rol oynayıb. Buna Çavuşoğlu çox yaxşı cavab verdi ki, hücum edən tərəf Ermənistan idi, onda belə çıxır, biz Ermənistana telefon açdıq, yaxud hansısa bir erməninin qulağına pıçıldadıq ki, azərbaycanlı qardaşlarımıza hücum edin. Həm Çavuşoğlunun, həm də Ərdoğanın buradakı görüşləri bütövlükdə Azərbaycana yeni bir stimul hazırlayır. "Arxanızdayıq" fikrini müdafiə edəcək stimulu verir. Doğrudan da Çavuşoğlu bunu öz fikirləri ilə dedi. Bundan əvvəl də Ərdoğan Ankarada söyləmişdi ki, biz hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və bunun təmin olunması üçün daim Azərbaycanın yanında olacağıq. Ərdoğanın səfəri ərəfəsində Pakistandan da böyük nümayəndə heyəti ölkəmizə gəldi. Pakistanlılar açıq şəkildə ölkəmizə canlı qüvvə, yüksək texnika ilə yardım etməyə hazır olduqlarını bəyan etdilər. Amma Ərdoğanın səfəri xüsusi bir mesajdır. Rusiya, Ermənistan, BMT və Minsk qrupu üzvü ölkələrinə mesajdır ki, Azərbaycanın işi haqq işidir, Ermənistan işğalçı dövlətdir, bu işğalçı dövlət Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Ərdoğanın mesajlarında o da var ki, ermənilər Azərbaycan torpaqlarından çıxmayınca, ölkəmizlə birlikdə Türkiyə mübarizə aparacaq".

**Q.Hüseynli onu da qeyd etdi ki, Türkiyə prezidentinin səfəri ilə Azərbaycanda ruh yüksəkliyi daha da qalxdı:** "Ərdoğan sözün həqiqi mənasında Bakıya gəlməklə Azərbaycanda onsuz da son zamanlarda müşahidə edilməkdə olan ruh yüksəkliyini bir az da qaldırdı. Həm Azərbaycanın siyasi rəhbərliyi, həm ordumuz, həm də ki insanlarımız Türkiyənin səmimiyyətinə, hər zaman Azərbaycanın yanında olması faktına bir daha inandılar. Beləliklə, Türkiyə-Azərbaycan münasibətləri bu səfərlə daha da möhkəmlənmiş oldu. Tədbirlərarası ikili görüşdə yəqin ki, Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif formaları müzakirə olundu. Hər şeydən əvvəl müdafiə sənayesinin inkişaf etdirilməsi ilə bağlı hər iki ölkənin münasibətlərinə bundan sonra daha da diqqət yetiriləcək. Sonra döyüş ruhunun yüksəldilməsi ilə bağlı türk zabitlərinin Azərbaycana gətirilməsi və ölkəmizdə təlim keçmələri məsələsi də gündəmdə idi. Xüsusi təyinatlılar məsələsində də Türkiyənin böyük rolunun olduğunu və bundan sonra bu rolun artacağını da söyləmək mümkündür. Azərbaycan yaxın vaxtlarda Türkiyə ilə strateji müttəfiqliyini daha yüksək səviyyəyə çatdıracaq. Bunun nəticəsində NATO, Qərb dünyası ilə əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət ayıracaq. Çünki son zamanlar müşahidə olunan hal budur ki, Rusiya Dağlıq Qarabağ problemi və onun həlli istiqamətində gedən prosesləri ələ keçirib. Buna görə də Azərbaycanın Türkiyə, Qərb dünyası ilə əlaqələrini genişləndirməyə böyük ehtiyac var. Bu proseslərdə Türkiyə əsas rol oynaya bilər".

**Politoloq İlham Əliyev-Ərdoğan görüşünün pərdəarxası məqamlarına da toxundu:** "4 günlük müharibə və bu savaşda uğur gətirən məqamlar, eləcə də çatışmayan cəhətlər yəqin ki müzakirə olunub. Bu proseslərdə Türkiyənin nə edə biləcəyi məsələsi də gündəmə gətirilib. Hazırda gündəmdə olan əsas məsələ sülh yaratma prosesidir. Ermənilər bu prosesə maneçilik yaratmağa çalışırlar. Özlərini bir növ naza çəkirlər. Rusiya isə bu məsələdə düşmən ölkəyə güldən ağır söz demir. Belə bir şəraitdə Azərbaycanın beynəlxalq təşkilatlarla təması güclənib. Artıq Azərbaycan BMT-yə müraciət edib. Başqa bir təşkilat da var. Bu, İslam Əməkdaşlıq Təşkilatıdır ki, onun da sədri Ərdoğandır. Bu xətlə həm BMT-yə, həm də digər beynəlxalq təşkilatlara təsir imkanları var. Ərdoğan yəqin ki, özünün sədrlik statusundan istifadə edərək, İslam Əməkdaşlıq Təşkilatı vasitəsilə Ermənistanın tutduğu mövqenin ifşa edilməsi üçün əlindən gələni edəcək. Bunun üçün atılacaq konkret addımlar bu ikili görüşdə müzakirə edilib. Əminəm ki, danışıqlar prosesində gündəmə gətiriləcək həll variantları da müzakirə olunub. Bu məsələlər bundan sonra da daim ikitərəfli məsləhətlərin predmetini təşkil edəcək".

❑ **Cavanşir ABBASLI**

# Beynəlxalq tədbirlərin ölkə üçün əhəmiyyəti...

**Qloballaşan dünyada beynəlxalq tədbirlərin rolu açılmazdır. Hansı istiqamətdə keçirilməsindən asılı olmayaraq bu cür tədbirlər ona ev sahibliyi edən ölkənin nüfuzu, beynəlxalq imici, dünyada tanınması üçün əvəzsiz rol oynayır. Bura qədər yazılanlara böyük əksəriyyət qatılır. Amma Azərbaycanda bu cür tədbirlərin dəbdəbəli keçirilməsinə, büdcənin havaya uçurulmasına görə narazılıq edənlər də var. Sonuncular düşünürlər ki, belə tədbirləri ümumən qadağan etmək lazımdır. Çünki büdcədən onlara ayrılan vəsait sonradan hansısa formada sıravi təqaüdçünün, müəllimin, həkimin... məvacibindən çıxılır ki, bu da əhalidə narazılıq yaradır. Ev sahibliyi etmək üçün ayrılan milyonlar, sərf edilən enerji, vaxt... adekvat olaraq ölkəyə qayıdırmı? İlk baxışda kiçik narazılıq kimi görünsə də, bu cür suallar əslində ev sahibi ölkənin əhalisi, onun əhvalı üçün ciddi şəkildə önəm daşıyır.**



**Xalid Kazımlı:** "Bir jurnalistin bir ölkəyə dəvət olunması on minlərlə oxucuda həmin ölkə barədə konkret rəy formalaşdıra bilir"



**Ərəstun Oruclu:** "Azərbaycanda bu cür tədbirlər hədsiz dərəcədə dəbdəbəli keçirilir və bu, iştirakçılarda neqativ hiss doğurur"

Yolu tez-tez xarici ölkələrdəki beynəlxalq tədbirlərə, konfranslara, forumlara düşənlər bu haqda nə düşünür? Bu sayaq tədbirlər daha sonradan ölkəyə divident olaraq geri qayıdır, ya....?

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı bildirdi ki, beynəlxalq tədbirlərin onun keçirildiyi ölkə üçün əhəmiyyətini son Astana səfərində daha çox anlayıb:** "Gün ərzində xəbərin içində olan biri kimi Qazaxıstanla bağlı təsəvvürlərim bu səfərdə xeyli dəyişdi. Bu günə qədər həmin ölkəni diktatura yuvası kimi tanıyırdımsa, orda gördüm ki, bu, səthi təsəvvürdür. Səfər çərçivəsində baş tutan görüşlər, Astana ilə tanışlıq, taksi sürücüsündən tutmuş jurnalist həmkarlara, diplomatlara qədər hər təbəqədən olan insanlarla ünsiyyət ölkə barədə təsəvvürün daha da dolğunlaşmasına yardım etdi. Əcnəbi qonaqlar, əsasən də jurnalistlər bu təəssüratlarını yeri gəldikcə yazır, müxtəlif auditoriyalarda danışırlar. Hər səfər bir neçə yazı və onun on minlərlə oxucusu deməkdir. Yəni bir jurnalistin bir ölkəyə dəvət olunması on minlərlə oxucuda həmin ölkə barədə konkret rəy formalaşdıra bilir".

**X.Kazımlı dedi ki, işin mənfi tərəfi bu tədbirlərə xərclənən pullar ola bilər. Onun fikrincə, bu da ciddi problem sayılmaz:** "Bizim Qazaxıstanda iştirak etdiyimiz beynəlxalq tədbirin sponsorları arasında 30-a qədər şirkətin, firmanın adı çəkildi. Onlar tədbirin xərclərini öz üzərinə götürmüşdülər. Bəlkə də hərəsinə bir bahalı avtomobilin dəyəri həcmində maliyyə vəsaiti düşmüşdü. Yəni bu cür məsələləri dövlət büdcəsindən ciddi itkilər vermədən həll etmək mümkündür. Toplam götürsək, belə tədbirlərə bir yüksək rütbəli məmurun sıradan bir villasının dəyəri qədər pul sərf olunur. Ona görə də ciddi itki sayılmaz.

Bundan başqa, ölkədə keçirilən hər beynəlxalq tədbir həmin tədbirin keçirildiyi şəhərin abadlaşdırılması, xüsusən də yollarının qurulması, infrastrukturun təkmilləşdirilməsi deməkdir. Tədbir bir neçə gün ərzində baş tutur, qonaqlar gedir, amma o tədbir üçün abadlaşdırılan şəhər paytaxt sakinlərinin həyatını asanlaşdırır".

**Şərq Qərb Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu da beynəlxalq tədbirlərdə fəal iştirak edən biri olaraq onun önəmini inkar etmir. Müsahibimiz hesab edir ki, bu sayaq tədbirlər ölkənin beynəlxalq imici və xarici dəstək üçün olduqca səmərəlidir. Ə.Oruclu dedi ki, bir çox ölkələrdə keçirilən tədbirlərdə, forumlarda iştirak edib və bunun effektindən xəbərdardır:** "Amma Azərbaycanda bu cür tədbirlər hədsiz dərəcədə dəbdəbəli keçirilir. Bu isə iştirakçılarda neqativ hiss doğurur. Müasir, qloballaşmış dünyada qeyri-təvazökarlıq pis qəbul olunur".

**Ə.Oruclu dedi ki, belə tədbirlərdə ilk növbədə iştirakçıların rəyi önəm daşıyır:** "Belə tədbirlərdə adətən ictimai fəal olan insanlar iştirak edirlər. Onların fikirləri də ictimai rəyə ciddi təsir göstərir. O baxımdan da həmin tədbirlərin effekti inkaredilməzdir".

❑ **Sevinc TELMANQIZI**

# Onkoloq Nəsimi Qasımov: "Siqaret çəkən kişilər, 30 yaşdan sonra evlənən qadınlar, süd verməyən analar risk altında..."

**Onkoloji Klinikanın baş həkimi:** "Yanlış qidalanma xərçəngin əmələ gəlmə səbəblərinin təxminən 40 faizini təşkil edir"; "Normal insanların bütün orqanlarında bədxassəli şişi əmələ gətirəcək hüceyrə var"

**Müasir tibb bir çox xəstəlikləri sağaltsa da, dövrümüzün ən böyük bəlalarından biri olan xərçəng xəstəliyinin müalicəsi hələ ki tapılmayıb. Nadir hallarda xərçəngdən sağalıb normal həyatına davam edən insanlar olsa da, xəstələrin əksəriyyəti həyatlarını itirirlər. Ümumdünya Səhiyyə Təşkilatı xərçəng xəstələrinin sayının ilbəil artacağını açıqlayır. Proqnozlara görə, 2030-cu ildən etibarən dünyada hər il 13 milyon insanın ölüm səbəbi xərçəng olacaq. Hazırda isə bu rəqəm 7,6 milyondur.**



*Bəs xərçəng xəstəliyindən necə qorunmaq olar? Hansı profilaktik addımlar atılmalıdır? Orqanizmdə bədxassəli şişlərin yaranmasına təkan verən hansı zərərli vərdişlərimiz var?*

*Suallarımızı Azərbaycan Tibb Universitetinin (ATU) Onkoloji Klinikasının baş həkimi Nəsimi Qasımov cavablandırır.*

***- Nəsimi müəllim, gündəlik həyat tərzi və qidalanmamızdakı yanlışlar xərçəngin yaranmasına təkan verə bilərmi?***

- Xərçəng xəstəliyinin əmələ gəlmə səbəblərini sadalasaq, birinci yerdə qidalanma faktoru durur. Yanlış qidalanma xərçəngin əmələ gəlmə səbəblərinin təxminən 40 faizini təşkil edir. Bəzi mənbələrdə bu, 43 faiz kimi qeyd edilir. Çünki xərçəng çoxfaktorlu, uzun müddətə əmələ gələn bir xəstəlikdir. Xərçəng birdən-birə əmələ gəlmir. Burada söhbət Avropa tipli qidalanmadan, yəni heyvani yağların çox qəbul olunmasından gedir. Bu, çəkinin artıq olmasına gətirib çıxarır və artıq çəki orqanizmdə oksidləşmə reaksiyalarına səbəb olur. Yəni maddələr mübadiləsinin düzgün getməməsi şəraitində hüceyrənin normal böyüyüb parçalanmasına əks təsir edən faktorlar əmələ gətirir ki, tibdə biz buna radikal faktorlar deyirik. Bu radikallar yeni yaranacaq hüceyrənin informasiyasını dəyişir. Ona görə də biz həmişə insanlara tövsiyə edirik ki, çoxlu miqdarda antioksidantlar qəbul etsinlər. Yəni bu radikalların qarşısını alan qidalardan çox yesinlər. Qida rasionunda süd və süd məhsullarına, tərəvəz və meyvələrə üstünlük versinlər. Ət qəbul etmiş olsalar belə, gün ərzində çoxlu fiziki hərəkət etməlidirlər ki, aldıqları enerjini yandıra bilsinlər. Qida enerjiyə çevrilib getməlidir ki, orqanizmdə qalıb gələcəkdə piylənməyə səbəb olmasın. Piylənmə bir sıra xəstəliklərə səbəb olur, o cümlədən bəd xassəli şişlərə gətirib çıxarır. Aktiv həyat tərzi bədxassəli şişlərin əmələ gəlməsinin profilaktikasından biridir.

***- Texnoloji yeniliklər, əsasən də mobil telefonlar, kompüterlər, lazer epilyasiyaları, kompüter tomoqrafiyaları xərçəng riski yaradırmı?***

- Heç birimiz texnologiyanın imkanlarından imtina edə bilmərik. Lakin bu sadaladığınız texnologiyalar müəyyən dalğalarla orqanizmə təsir edirlər. Ola bilər ki, bu hansısa xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Texnologiya həm də orqanizmdə passivlik yaradır. Bayaq dediyim kimi, insanın qəbul etdiyi qidaları yandırması, onu enerjiyə çevirməsi üçün aktiv həyat tərzi lazımdır. Bu sadaladığımız faktorlar insanı passivləşdirir. Bədxassəli şişlərin əmələ gəlmə səbəbləri arasında ikinci yerdə siqaret dayanır. Ağciyər xərçənginə tutulan kişilərin 97 faizi siqaret çəkənlərdir. Azərbaycanda qadınlar arasında yayılmış xərçəng növləri arasında birinci yeri süd vəzi xərçəngi tutur. Süd vəzi xərçənginin yaranma səbəblərindən biri də insanların nəsil törətməsinin azalmasıdır. Söhbət 30 yaşından sonra ailə həyatı qurmaqdan, uşaq dünyaya gətirməkdən, uşaqların sayının az olmasından, uşaqları ana südü ilə qidalandırmamaqdan gedir.

***- Obyektiv səbəblər hansılardır?***

- Səbəblərdən biri də ekoloji çirklənmədir. Ətraf mühitin çirklənməsində rol oynayan amillərdən biri küçələrdə avtomobillərin yandırdığı benzin və ondan havaya buraxılan zəhərli tüstüdür. Yanma məhsullarının içində benzol hələ deyilən maddə var ki, o, insan orqanizminə daxil olduqda xərçəng yaranmasına səbəb ola bilər. Daha sonra sənətlə bağlı faktorlar, radiasiya şüaları ilə bağlı faktorlar da var. Azbest sənayesi də zərərli faktorlardan biridir. Artıq azbest sənayesi şəhərdən kənara köçürülüb, insanlar da azbest dam örtüklərindən imtina edib, dəmir örtüklərə keçiblər. "Qara şəhər" "Ağ şəhər"ə çevrilib. Bu da müsbət amillərdən biridir. Xərçəng şişlərinin yaranmasında alkoqolun da rolu var, ancaq bir o qədər də böyük deyil.

***- Xərçəng irsi ötürülə bilərmi?***

- Bəli, irsiyyətin də müəyyən qədər rolu var. Məsələn, mən bir ailədən ananı, qızı və nəvəni süd vəzi xərçənginə görə əməliyyat etmişəm. Dəfələrlə iki bacı, xala uşaqları müraciət ediblər. Xarici ölkələrdə xüsusi agentliklər var ki, xərçəng xəstələrinin müayinələrini həyata keçirir. Onlar hətta bu cür irsi xəstəlikləri aşkar edəndə, həmin qadınlardan hər iki süd vəzilərinin əməliyyatla götürülməsini də tövsiyə edirlər.

***- Bəs xərçəng xəstəliyinin profilaktikası necə həyata keçirilməlidir?***

- Profilaktika iki istiqamətdə həyata keçirilir. Birinci növ profilaktika dövlət tərəfindən həyata keçirilir və onun məqsədi xərçəngi əmələ gətirə biləcək amillərin azaldılmasıdır. Bunlar sağlam qidanın, fiziki inkişafın təşkili, əhalinin məskunlaşdığı ərazilərdən zərərli sənaye müəssisələrinin kənarlaşdırılması, yaşıllıqların çoxaldılması və sairdir.



İkinci növ profilaktika fərdin profilaktik müayinəsidir. Tibbdə buna "skrininq" deyirlər. Gərək səhiyyə təşkilatları bu işi təşkil etsin. Bu da birbaşa olaraq sığorta təbabəti ilə bağlıdır. Artıq sığorta təbabətinin Azərbaycanda tətbiqinə start verilib və biz inanırıq ki, bu Azərbaycanda olacaq. Lakin sığorta təbabəti yalnız profilaktik baxış üçündür, orada müalicə yoxdur. Bu sığorta tətbiq olunsa, hər kəs özünü ildə bir dəfə yoxlada biləcək. Bədxassəli şişləri müəyyən etmək üçün müəyyən qan müayinələri, rentgenoloji müayinələr, ultrasəs müayinələri, hətta kim müayinəsi və sorğu metodları var. Burada əsas məqsəd şişönü xəstəliyi, yəni hələ xərçəng yaranmamışdan öncəki mərhələni aşkar etməkdir. Növbəti məqsəd isə ən azından, xərçəngi ilkin mərhələdə tapmaqdır. İlkin mərhələdə xərçəngin tapılması müalicə üçün çox önəmlidir.

***- İnsan bədənində hansı əlamətlər xərçəngin xəbərçisi ola bilər?***

- Normal insanların bütün orqanlarında bədxassəli şişi əmələ gətirəcək hüceyrə var; bu, bizim genlərimizdədir. Yalnız onun qıcıqlandırılması lazımdır ki, bu da qeyd etdiyim faktorların nəticəsində mümkündür. Lakin bu faktorların təsiri ilə bədxassəli şişin əmələ gəlməsi müddəti insan ömrünün yarısı qədərdir. Xərçəng bir ilə yarana bilməz. O, uzun bir proses keçməlidir. Ancaq kanserogen maddənin miqdarı çox olduqda vaxt qısala bilər. Əvvəlcədən xərçəngi hiss etmək üçün insanlar müəyyən baxışlar keçirə bilər. Məsələn, qadınlarda ən çox yayılan süd vəzi xərçəngidir. 35 yaşını keçən hər bir qadın 2-3 gündə bir dəfə boylama güzgünün qarşısına çıxmalı və əllərini belinə qoyub, sonra başına qoyub süd vəzilərinin simmetrikliyinə, dəridə qırışların və yaranın olub-olmamasına, döş uclarından ifrazatın olub-olmamasına diqqət yetirməlidir. Sonra əli ilə yoxlamalı və orada hər hansı problemin olub-olmadığını araşdırmalıdır. Kifayət qədər belə qadınlar var ki, şişin çox erkən mərhələsində gəlir və kiçik bir müalicə aparmaqla onu həyata qaytarmış oluruq. Siqaret çəkən kişilərdə isə ağciyər xərçəngini müəyyən etmək üçün ildə bir dəfə rentgenoloji müayinədən keçmək lazımdır.

***- Nəsimi müəllim, xarici mətbuatda tez-tez belə iddialara rast gəlirik ki, xərçəngin müalicəsi əslində var, lakin bu xəstəlikdən müalicə çox böyük biznesdir deyə, bu müalicə metodu gizlədilir. Mümkündürmü bu?***

- Bədxassəli şişlərin müalicəsi ilə məşğul olan dünya təşkilatlarının birliyi var. Onlar ildə bir dəfə toplanırlar və orada hər şey müzakirə olunur, paylaşılır. Xərçəngin müalicəsində heç bir sirr yoxdur. Heç kim də heç nə gizlətmir. Azərbaycandan da, bizim universitetdən də oraya qatılanlar olur. Sirr adlı bir şey yoxdur. Xərçəngin müalicəsi tapıldı deməklə elə bir rəy yaradırlar ki, sanki xərçəng xəstəsinə bir stəkan dərman içirəcəksən və o sağalacaq. Belə şey dünyada mövcud deyil. Xərçəngin müalicəsi kompleks aparılır. Bu müalicə cərrahiyyə, şüa terapiyası, hormonal terapiya, kimyəvi dərman terapiyası, kök hüceyrələrinin köçürülməsi, bioterapiyalar kimi kombinə olunmuş şəkildə mövcuddur. Burada xərçəngi aşkaretmə mərhələsinin böyük rolu var. Xəstəlik birinci-ikinci mərhələdə aşkar edilməlidir ki, yaxşı nəticə əldə edilsin. Xərçəng xəstəliyinə adətən 45 yaşından sonra rast gəlinir. Mənim 15 il bundan öncə müalicə etdiyim adamlar var ki, indi də gəlib müayinə olunurlar. Ancaq qəzetdə yazıldığı kimi, "xərçəngin dərmanı kəşf olundu" iddiaları tarixən olub və bu şarlatanlıqdan başqa bir şey deyil.

***- Türkəçarə ilə, təbii bitkilərlə xərçəngin müalicəsi mümkündürmü?***

- Bu, elə şarlatanlığın ən böyüyüdür. Xərçəng kifayət qədər elmi əsası olan müalicə ilə ram edilir. Bəzən xəstəyə hansısa meyvə şirəsini verirlər və o sağalır. Hansı ki, əlində bədxassəli şiş olması ilə bağlı bir arayış da var. Ancaq o şişin məhz xərçəng olması müəyyən olunmayıb.

***- Azərbaycanda xərçəngin hansı növləri daha çox yayılıb?***

- Ümumiyyətlə, bədxassəli şişlər lokalizasiyasına görə, fərqli yayılır. Məsələn, mədə-bağırsaq traktı xəstəliyi Yaponiyada daha çox yayılıb. Süd vəzi xərçəngi Avropada və ABŞ-da çox yayılıb, qida borusu xərçəngi Xəzər dənizi hövzəsində olan ölkələrdə çox yayılıb. Ağciyər xərçəngi siqaret çəkənlərin çox olduğu ölkələrdə, o cümlədən Türkiyədə geniş yayılıb. Dəri xərçəngi Günəş şüalarının daha çox düşdüyü ölkələrdə yayılıb. Dəri xərçənginin əmələ gəlməsinin səbəblərindən biri də qış vaxtı yaşadığın ölkədən daha isti bir ölkəyə kurortlara getməkdir. ABŞ-da daha çox prostat vəzi xərçəngi yayılıb, ancaq bu, müalicə olunandır... Azərbaycan xərçəngin ən geniş yayıldığı ölkələr sırasında deyil. Lakin bu gün iki xərçəng növü - süd vəzi və ağciyər xərçəngi sürətlə yayılır. Son 20 ildə süd vəzi xərçəngi iki dəfə artıb. Məlumatlar yayılır ki, xərçəng bir qədər gəncləşib. Ola bilər diaqnostikanın yaxşılaşması xəstəliyin daha erkən aşkarlanmasına gətirib çıxarır ki, bu nəticə də ondan yaranır. Xərçəng xəstələrinin çoxalmasının səbəblərindən biri də insanın orta ömür müddətinin artmasıdır. 100 il bundan öncə bu ərazidə yaşayan insanların orta yaşı 43,7 yaş idi. Deməli, insan ömrü artıb. Rus alimlərindən biri demişdi ki, XXI əsrdə insan ömrü o qədər uzanacaq ki, hər kəs öz xərçəngi ilə öləcək.

***- Nəsimi müəllim, bəs müalicə üçün xaricə üz tutanların artmasının səbəbi nədir?***

- Qısa müddət öncəyə qədər bizdə əhalinin dərman preparatları ilə təminatında çətinliklər var idi. Bunu aradan qaldırmaq səhiyyə büdcəsinin gücündə deyildi. Prezidentin göstərişi ilə xüsusi proqramlar yaradıldı və onun biri də onkoloji xəstələrin kimyəvi terapiya dərman proqramı idi. Biz bu gün dövlət büdcəsi hesabına xəstələrin böyük əksəriyyətini dərmanla təmin edə bilirik. Ancaq yenə də olmayan dərman preparatlarımız var və onları əldə etmək zamana bağlıdır. Sığorta təbabəti olan kimi kimyəvi terapiya dərmanları da onun içinə düşəcək və biz xəstələrimizi təmin edəcəyik. Xəstələrin xaricə üz tutmasının səbəbi bu ola bilər. Ancaq istənilən halda ona diaqnoz burada qoyulur. Bir də bizdə səhiyyəyə daxili inamsızlıq var, bunu danmaq olmaz. Mən deməmişdim ki, bizim səhiyyədə hər şey gün kimi aydındır. Ancaq son illərdə bizim inkişafımız Rusiyanın, Ukraynanın səhiyyəsinin inkişafından daha öndədir.

**❑ Nərgiz LİFTİYEVA**
**❑ Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 91 (6412) 28 aprel 2016

# Repetitor ordusu



Zamin HACI
zaminhaci@gmail.com

**Öncə bütün yapist yoldaşları - hakimiyyət nümayəndələrimizi 28 aprel münasibətilə təbrik edirəm. Çünki bu tarixi gün olmasaydı, Azərbaycanda sovet hakimiyyəti qurulmasaydı şeytan bilir onların dədə-babaları və özləri indi tarixin hansı küncündə idilər. 28 May-zad boş şeydir. Bunların əsas bayramı 28 apreldir, 7 noyabrdır, nə bilim, 23 fevraldır, Leninin doğulduğu gündür, Brejnevin "Qəhrəman ana" ordeni almasının növbəti ildönümüdür və sairə. O bəzi müsəlmanlarda dini adət ki, var - gördün vəziyyət xarabdır, əqidəni gizlət - bunu yapistlərə də aid edə bilərik. Hazırda onlar üçrəngli bayrağa-filana tapınmaqla həmin işlə məşğuldurlar. Təqiyyə edirlər. Həmin dini ikiüzlülüyün, əslində təkamül nəzəriyyəsinə uyğun canını qorumaq vasitəsinin "elmi" adı belədir.**

Sonra bir ədalətsizliyə diqqət yönəldim, dünya birliyi buna dözür. Dünən Britaniyada yerləşən hansısa axmaq təşkilat dünyanın ən təsirli mətbuat, jurnalistika orqanlarının adını çəkibdir. Təsəvvür elə, bu siyahıda CNN var, əl Cəzirə var, nə bilim, "Nyu York Tayms" var, ancaq bizim AzTV və "Azərbaycan" qəzetinin adı yoxdur. Halbuki bunlardan biri Almaniyanı dağıdıb, Yaponiyanı isə götürüb yerə çırpıbdır, ikincisi isə Barak Obamanın riyakarlığını öz 15 manatlıq başsağlığı reportajlarında ifşa edibdir. Elə dünən də hardasa gördüm, "Azərbaycan" qəzetinin şefi Bəxtiyar müəllim yazmışdı ki, ordumuz Qarabağı azad edib, hazırda Göyçə gölü istiqamətində gedirik. Hətta Zakir müəllim arada Bəxtiyar müəllimdən xahiş edib ki, a Bəxtiyar, bir az yavaş irəlilə, əsgərlərimiz çata bilmir. O da adaşından sitat gətirib, deyib, axı dünya fırlanır!

İndi sən bunları necə önəmsiz sayarsan? Hələ bunlar cəhənnəm, "Səs" qəzetinin dünya media orqanları arasında ilk beşlikdə olmasına kimin şübhəsi var? Yadıma gəlir, 2001-ci ildə 11 sentyabr günü "Səs" qəzeti "Pentaqonda islahatlar davam edir" manşeti ilə çıxmışdı. Uğurlarımızı gözü götürməyən mənfur qüvvələr çoxdur.

Həmin qüvvələr müəllimlərdən ordumuza 1-2 faiz pul yığılmasına da vedrə bağlayırlar. Deyirlər guya müəllimlər şikayətləniblər ki, nə üçün onsuz da az maaşımızdan 2-3 manat qanunsuz yığılır.

Birincisi, Mikayıl müəllimin çoxdan qərarı var, heç kim məktəbdə hər hansı formada pul yığa bilməz. Ola bilsin bu pulları məktəbin darvazasından bayırda yığırlar. Nazir yaxşıdır, məktəb pisdir. Məktəb yaxşıdır, ətrafı pisdir. Müəllim yaxşıdır, uşaqlar pisdir. Uşaqlar yaxşıdır, valideynlər pisdir. *(Kimsə müəllifi dayandırsın, artıq ağzına gələni yazır - red.)*. Müəllif yaxşıdır, redaksiya pisdir.

İkincisi, dərsin başını buraxıb uşaqlara guya patriotizm öyrədəndə bunun bir xərci olacağını bilməliydiniz. Keçən dəfə yazmışdım: müftə vətənpərvərlik olmur. Dahi Məhəmməd Əmin Rəsulzadənin hələ 1906-cı ildə yazdığı kimi, bir malın adı "qarpız" olanda 1 manatadırsa, "millət qarpızı" olanda qiymət avtomatik 5 manata qalxır. Müəllimlərimiz özlərini elə aparmasınlar ki, guya bunları bilmirlər. Maşallah, hamısı alim adamdır, ildə 120 kitab oxuyurlar. Dünən orta məktəb müəllimimi metroda gördüm, əlində roman, yuxuya dalmışdı. Universitetlərimizə aparan yollar dönər-kitab salonları ilə parlayır! Burada hər cür - ağ vərəqə, sarı vərəqə bükülmüş, lavaşarası, toyuq, basdırma dönərləri alıb elm yolunda irəliləmək olar!

Üçüncüsü, müəllimlərin maaşını tamamilə kəsib orduya vermək lazımdır. Camaat orda baş kəsib qan tökür, sən burda qurbağanın dərisini fenlə qurutsan qarnı ağrıyarmı, nə bilim, feli məsdər nədir, 9-cu əsrdə hansı gicbəsər padşah oğlunun arvadını əlindən alıb özünü də itə yedizdirib - belə səfeh şeylərlə millətin balalarının beynini doldurmaq istəyirsən. Bizə belə elm lazım deyil. Pulu tanıdı bəsdir.

Yaxşı olar, müəllimlər əsgər hazırlaşdırsınlar və biz tezliklə tamamilə repetitor orduya keçək. İndi söz əlaqədar təşkilatlarındır.

# Qarabağ münaqişəsinin həll modelləri - tarixi xronologiyanın ortaya çıxardığı sərt reallıq

## **Zahid Oruc:** "4 günlük müharibə sübut elədi ki, ən yaxşı həll modelini əsgərlər təklif edə bilər"

**Azərbaycan ordusunun aprelin ilk günlərində cəbhədəki uğuru Qarabağ münaqişəsini beynəlxalq səviyyədə ön sıralara çıxardı. Artıq hər kəs Ermənistanla Azərbaycanın danışıqlar masasında əyləşməsinə çalışır və münaqişənin sülh yolu ilə həll modellərini təklif edir.**

Yada salaq ki, 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildikdən sonra ATƏT-in Minsk Qrupu çərçivəsində müntəzəm olaraq sülh danışıqları aparılır. 1994-cü ilin dekabrın 5-6-da ATƏT-in Budapeşt sammitində münaqişə ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olunub. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapıb.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısından sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk Qrupunun həmsədrləri təyin olundular. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk Qupu həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət - yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etdilər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "Paket" *(bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla, bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu)* həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "Mərhələli" *(bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu)* həllindən ibarət idi. Azərbaycan prezidenti həmin planlarla tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi həmin təkliflərlə razılaşmadı.

1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbul edilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "Ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycanın o zamankı prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni "Ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi. "Ümumi dövlət" ideyası iflasa uğradıqdan sonra Minsk Qrupu praktik olaraq dalana dirəndi.

Danışıqlar prosesinə təkan vermək üçün 1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlandı və ATƏT-in Minsk Qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüşün nəticəsində də münaqişənin nizama salınması istiqamətində konkret nəticə əldə edilmədi.

Yalnız onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycan prezidenti Heydər Əliyev Ermənistan prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk Qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirib. Lakin irəli sürülən heç bir həll variantı üzrərində sülh sazişi imzalamaq mümkün olmayıb.




2004-cü il aprelin 16-dan başlayaraq Praqada Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqlar yenidən bərpa olunub. Sonradan "Praqa prosesi" adını almış danışıqların bu mərhələsində 2005-ci ilin yayına qədər iki dövlətin xarici işlər nazirləri 11 görüş keçirərək münaqişənin nizama salınmasına dair sülh planının yeni variantının detallarını müzakirə ediblər.

2005-ci il yanvarın 3-də Azərbaycan prezidenti İlham Əliyev Bakıda Təhlükəsizlik Şurasının iclasında münaqişənin aradan qaldırılması istiqamətində əlverişli şəraitin yarandığını və bu problemin "Praqa prosesi" əsasında getdiyini bildirməklə danışıqlarda yeni mərhələnin başlandığını bəyan edib. Ermənistan münaqişənin "Praqa prosesi", yəni "mərhələli həll" variantı üzrə danışıqlara razılaşmaq məcburiyyətində qalıb. 2005-ci il mayın 15-də Varşavada, avqustun 27-də isə Kazanda iki ölkənin prezidentləri arasında keçirilən növbəti görüşlərdə danışıqların əsas mövzusu təklif edilən yeni sülh planının detallarının müzakirəsi olub. Keçirilən görüşlərdə Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa prosesi"nin yenidən dalana dayanmasına və danışıqların nəticəsiz qalmasına gətirib çıxarıb. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması prosesini sürətləndirmək üçün yenidən baza prinsipləri 2007-ci il noyabrın sonunda Madriddə tərəflərə təqdim olunub.

Bundan sonra 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburqda, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də isə Münhendə Azərbaycan və Ermənistan prezidentlərinin 8 görüşü keçirilib. Bu görüşlər zamanı danışıqların mahiyyəti haqqında verilən məlumatlarda bildirilir ki, "Praqa prosesi" çərçivəsində işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri mövcud olub. Sonuncu dəfə isə 2011-ci ildə Kazanda o zamankı Rusiya prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə "Medvedyev variantı" kimi mediada təqdim edilən həll variantı tərəflərə təklif edilib. Bir müddət danışıqlar bu təkliflər üzərində getsə də yenə də nəticə olmayıb.

**Bu tarixi xronologiya bu günədək Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmadığını sübut edən əyani faktdır. İndiyədək irəli sürülən həll variantlarından Azərbaycana hansının müəyyən qədər də olsa sərf etməsinə gəldikdə, bu barədə danışdığımız deputat Zahid Oruc öncə bildirdi ki, tarix boyu bütün müharibələr sonucda danışıqlardan keçib:** "Hərbi gerçəkliklər yazılı sənədlərə daşınıb və sonucda bir müqavilə bağlanıb. Hər bir Azərbaycan insanı anlayır ki, Qarabağ cəbhəsində Ermənistanla Azərbaycan arasında gedən savaş günün birində yekunda hansısa bir hüquqi aktla sonuclanacaq. Lakin bu, 1994-1995-ci ilin məlum atəşkəs razılaşması aktı kimi deyil. Sülh planı nə zamansa imzalanacaq. ATƏT-in Minsk Qrupu yarandığı gündən bu yana yalnız 1996-cı ildə aktiv şəkildə bir neçə sülh sazişi sənədi təklif edib. Onlardan birincisi Levon Ter-Petrosyanın hakimiyyətdən getməsinə səbəb olub. İkinci və üçüncülərin müzakirəsi zamanı isə Ermənistanın parlamentində gülləbaran əməliyyatı keçirilib və razılaşma mümkün olmayıb. 2011-ci ildə tərəflər xüsusilə də Rusiyanın egidası altında keçirilən danışıqlar vasitəsilə razılaşmaya gəlsəydilər və sülh müqaviləsi imzalansaydı da təminat yox idi ki, həmin model işləyəcək. Ona görə də ATƏT-in Minsk Qrupunun hazırkı konfiqurasiyasında Qarabağ məsələsinin çözümünü heç zaman gözləməyin. Ümumiyyətlə, bu məsələnin siyasi vasitə ilə həlli yoxdur. İrəli sürülən heç bir həll variantı Azərbaycanın marağına uyğun gəlmir. Çünki həll variantında Dağlıq Qarabağda referendum keçirilməsi məsələsi qoyulur. 4 günlük müharibə sübut elədi ki, istənilən beynəlxalq qurumlara ən yaxşı həll modelini əsgərlər təklif eləyə bilərlər".

**Deputatın sözlərinə görə, bu mənada Azərbaycan maksimum elə bir şəraiti yetişdirməyə çalışır ki, hərbi və siyasi meydanda Ermənistanla təkbaşına üz-üzə qalsın:** "Ona görə də ya paket, ya mərhələli həll variantlarının ayrı-ayrı detallarını qiymətləndirmək, yaxud da geniş polemikalar açmağın əleyhinəyəm. Unutmayın ki, hətta 50 il sonra referendumun keçirilməsi belə Azərbaycanın dövlətçiliyinə yönəlik təhlükə vəd edə bilər".

❑ **Etibar SEYİDAĞA**

## Düşməni tam və axıradək əzmək üçün tarixi şans

# Ermənistanın aprel məğlubiyyətinin şok səbəbi - Bakı üçün unikal fürsət!

### İşğalçı ölkənin silahlı qüvvələrində üç istiqamətdə böhran yaşanır, onu tezliklə aradan qaldırmaq və qısa zamanda yeni ordu qurmaq mümkün olmayacaq; nüfuzlu Rusiya nəşri: "İrəvan öz demarşı ilə Rusiyanı da qəliz duruma salıb"; zaman Azərbaycana işləyir, çünki...




**Azərbaycan ordusunun apreldəki möhtəşəm blits-hərbi uğurundan düşmən hələ də çaş-baş vəziyyətdədir. Bu vəziyyəti ilk öncə Ermənistanın siyasi-hərbi rəhbərliyinin panik ovqatı və davranışı, habelə ölkə daxilində atdığı addımlardan və cəbhə xəttindəki uğursuz təxribat əməllərindən görmək olar.**

Xəbər verildiyi kimi, dünən prezident Serj Sərkisyan Müdafiə Nazirliyinin yüksək vəzifəli bir neçə generalını işdən qovub. Bunlar nazirin maddi-texniki təchizat üzrə müavini Alik Mirzabekyan, baş qərargahın kəşfiyyat idarəsinin rəisi, general-mayor Arshak Karapetyan, rabitə qoşunlarının - rabitə və avtomatik idarəetmə sistemləri idarəsinin rəisi, general-mayor Komitas Muradyandır.

"Xəzər" Hərbi Tədqiqatlar İnstitutunun rəyinə görə, Sərkisyanın bu qərarı Ermənistan silahlı qüvvələrinin hazırda üç istiqamətdə böhran yaşadığını göstərir. "Aprelin 2-5-də cəbhə xəttində baş verən hərbi əməliyyatlar Ermənistan silahlı qüvvələrinin aşağıdakı əsas çatışmazlıqlarını ortaya çıxarıb: 1. Silahlı qüvvələrin maddi-texniki təchizatı; 2. Kəşfiyyat fəaliyyəti; 3. Rabitə və avtomatik idarəetmə", - qurum qeyd edir.

Araşdırmalara görə, hər il Ermənistan silahlı qüvvələrinə ayrılan büdcənin *(Ermənistanın illik hərbi büdcəsi 400-600 milyon dollardır)* əsas hissəsi - təxminən 80 faizi məhz maddi-texniki təchizata ayrılır. Buraya demək olar ki, ordunun ayaqda qalması üçün hər şey - silahlanma və digər hərbi-texniki təchizat, hərbi xarakterli binalar, sığınacaqlar, mühəndis-istehkam qurğuları, müxtəlif obyektlər, qidalanma, geyim, məvacib və s. daxildir.

Erməni mənbələrindən verilən məlumata görə, 2-5 aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdakı hərbi birləşmələrinin silahlanmasında, qidalanmasında, geyimində və müxtəlif hərbi obyektlərin *(xüsusilə də tibbi bölmələr, hospitallar və s.)* durumunda , eləcə də hərbçilərin xidmət şəraitində ciddi problemlər ortaya çıxıb. Bir sıra hərbi hissələrin maddi-texniki təminatının, ümumiyyətlə, yolverilməz vəziyyətdə olduğu vurğulanıb.

Bütün bu səbəblərdən hərbi əməliyyatlardan dərhal sonra Ermənistan Müdafiə Nazirliyinin maddi-texniki təchizatını həyata keçirən müxtəlif idarə, struktur və birləşmələrində antikorrupsiya xarakterli yoxlamalara başlanılıb. Ciddi yeyinti hallarının mövcudluğu barədə məlumatlar var. İlkin məlumata görə, qeyd edilən strukturlarda 30-dan artıq hərbi qulluqçu vəzifəsindən çıxarılıb və bəziləri artıq cinayət məsuliyyətinə cəlb olunub. Müdafiə nazirinin maddi-texniki təchizat üzrə artıq keçmiş müavini Alik Mirzabekyanın sorğulandığı, ona və ailəsinə ölkəni tərk etmək qadağası qoyulduğu bildirilir.

Bununla belə, kəşfiyyat və rabitə, eyni zamanda avtomatik idarəetmə sahələrində də araşdırmaların başlandığı bildirilir. Verilən məlumatlarda qeyd olunur ki, əsas "narahatlıq yaradıcı məqam" hərbi əməliyyatlar zamanı erməni tərəfinin itkilərinin (həm heyət, həm də texniki) çox olmasıdır. Belə görünür, cəbhə xəttində baş verən hərbi əməliyyatlar zamanı kəşfiyyat qruplarının fəaliyyətində ciddi problemlər ortaya çıxıb. Azərbaycan tərəfinin həyata keçirdiyi bəzi hərəkətlərlə bağlı vaxtında xəbər tutulmayıb və bu səbəbdən Azərbaycan tərəfinin zərərsizləşdirilməsi baş verməyib. Cəbhə xəttinin şimal hissəsində - Talış kəndi yaxınlığında gedən əməliyyatlar zamanı Ermənistan qüvvələrinin rabitə əlaqəsində ciddi problemlər ortaya çıxıb. **"Talış kəndi ətrafında bəzi yüksəkliklərin itirilməsinin əsas səbəbi məhz qoşunların rabitə əlaqəsində ortaya çıxan problemlərlə əlaqəli idi"**, - deyə mənbə bildirib.

Eyni zamanda Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat idarəsinin fəaliyyəti ilə bağlı müəyyən nüanslar üzə çıxıb. Məlumata görə, erməni xüsusi xidmət orqanları Ermənistan Müdafiə Nazirliyindən Azərbaycana "informasiya sızıntısı"nın mümkünlüyü ehtimalı üzrə araşdırmalara başlayıb.

Qurumun təhlilinə görə, ümumilikdə araşdırmalar onu göstərir ki, ordunun vacib qolları olan maddi-texniki təchizat, kəşfiyyat və rabitə qurumlarının rəhbərlərinin vəzifədən çıxarılması Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyinin yenidən formalaşdırılması istiqamətində verilmiş qərardır. Bu isə dolayısı ilə, erməni ordusunun idarəetməsinin və bütövlükdə ordunun özünün yenidən qurulması anlamına gələ bilər. Bununla da yaxın bir ay ərzində Ermənistan Müdafiə Nazirliyində onlarla yüksək rütbəli zabitin vəzifəsini itirəcəyini, xeyli sayda zabitlərin məsuliyyətə alınacağını gözləmək olar.

***

Lakin qısa müddətdə Azərbaycanın güclü ordusuna qarşı yeni, peşəkar və döyüşkən ordu yaratmaq Ermənistan kimi acından ölən, boşalan, cavan əhalisi sürətlə emiqrasiya edən və orduya çağırışçı tapmayan, habelə iqtisadiyyatı rüşeym vəziyyətdə qalan bir cırtdan ölkə üçün bu, təbii ki, qeyri-mümkündür.

Rusiya isə nə qədər öz forpostuna hərbi yardım eləsə də, bunu müəyyən həddədək edəcək, öz müasir silahlarını Ermənistana havayı, ucuz verməkdənsə, normal qiymətə başqa ölkələrə, o cümlədən Azərbaycana satacaq. Bunu həm də onun ilbəil ağırlaşan iqtisadi durumu tələb edir. Yeri gəlmişkən, bunun bir göstəricisi də Rusiyanın Türkiyədəki Akkuyu AES-in inşası ilə bağlı "Rosatom" şirkətinin özünə məxsus 100%-lik payın 49%-ni satışa çıxarmasıdır. Yəni İrəvanın Moskvaya çox bel bağlamasına da dəymir.

Yaranmış durum Azərbaycana işğalçını ədalətli sülhdən imtina edəcəyi təqdirdə tam və axıradək əzmək üçün unikal şans yaradır - bir şərtlə ki, Bakı Rusiya amilini, beynəlxalq şərtləri də düzgün hesablaya. Bütün hallarda zamanın artıq Azərbaycanın xeyrinə işlədiyini söyləmək mümkündür. Hər necə olmasa, 4 günlük uğurlu savaş Ermənistan-Rusiya müttəfiqliyinə də ciddi çat salıb və işğalçının Moskva sarıdan "beli boşalıb".

Nüfuzlu "Kommersant" qəzetinin son məqaləsindən də bunu görmək olar. Nəşr İrəvanın Qarabağ məsələsində tutduğu qeyri-konstruktiv mövqeyi, faktiki surətdə "Lavrov təkliflər"ni rədd edərək, Qarabağda Rusiya sülhməramlılarının yerləşdirilməsi əleyhinə çıxmasının Moskvanı çətin vəziyyətə saldığını qeyd edib. Müəllifə görə, "status-kvonu dəyişmək və heç bir güzəştə getmək istəməyən, həmçinin Kremlin təklifləri şübhə altına alan Ermənistan öz demarşı ilə strateji müttəfiqi Rusiyanı da qəliz duruma salıb".

Nəşr Sərkisyanın sülhdən imtina bəyanatının ardınca Müdafiə Nazirliyi sistemində apardığı təmizləmələrə də diqqət yönəldib və bunun Qarabağdakı son vəziyyətlə birbaşa bağlı olduğunu vurğulayıb - nə barədə ki, yuxarıda artıq yazdıq.

❑ **Analitik xidmət**

---

# Leninlə İsa Peygəmbər arasında...



**Hüseynbala SƏLİMOV**

**Rusiyanı buralarda görməkdən artıq onu özündə görməyə keçməyin məqamı gəldi. Bəli, düz bir ay idi Rusiyanın Qarabağla bağlı "səy"lərini izləməklə məşğul idik.**

Amma ümidlər fiaskoya uğradı. Lavrov Ermənistanda heç nəyə nail ola bilmədi. Ona görə də həmişə deyirəm ki, ermənilərə Qarabağ probleminin tamam passiv oyunçuları kimi, Rusiyanın iradəsinin passiv ifadəçisi kimi baxmaq lazım deyil. Əgər Rusiyada bir varsa, ermənilərdə iki var. Necə deyər, az aşın duzu deyil onlar...

Lavrovun səfəri ərəfəsində deyildi ki, o, Ermənistana ölkəsinin maraq və məqsədlərinə uyğun təkliflər aparıb. Üstəlik, S.Sarkisyanın müsahibəsindən belə başa düşdük ki, Lavrov onunla bölgəyə Rusiyanın sülhməramlılarının gətirilməsi haqqında da danışıb...

Amma ermənilər Rusiyaya "hə" demədilər. Deməli, hələ ki öz oyunlarını oynayırlar...

Lavrov Ermənistandan qayıdandan sonra hər yanı sükut bürüdü, təkcə Qarabağ bölgəsində atəş səsləri eşidilməyə başladı, özü də böyük intensivliklə. Amma Rusiyaya nə var ki? O, bütün hallarda uduşdadır. Ən azı ona görə ki, tərəflər güllələrini atıb yenidən silah-sursat üçün Rusiyaya müraciət edəcək...

Qərəz, Rusiya indi adi ritmində yaşamağa davam başladı. On illərlə davam edən Qarabağ oyunu da öz ritmindədir. Bu oyunda da hər iki tərəf - həm Ermənistan, həm də Rusiya öz uduşunu da bilir, "stavka"sını da. O ki qaldı Azərbaycana, onun bu prosesdə canı və qanı gedir. Amma qəm yeməyə dəyməz, çünki "Torpaq üstündə ölən varsa, vətəndir!" - deyiblər. Təbii ki, yüz illərlə bizim olmuş torpağın üstündə təkrar ölmək ağır gəlir adama. Amma nə etmək olar?..

Qərəz, qayıdaq Rusiyaya. Görün, bunlar nədən ehtiyat edir? Deyirlər ki, görən, 1 mayda insanlar kilsəyə gedəcək, yoxsa mitinqlərə? Xatırladaq ki, həmin gün həm də pravoslav pasxası olacaq...

Bilirsiniz, bu detalı niyə xatırladım? Rusiya özü daim təlaş içindədir. Elə hey nəsə təhlükəli bir şeyin baş verəcəyini düşünürlər...

Səhv etmirəmsə, hətta bir dəfə V.Putin dedi ki, Lenin Rusiyanın altına elə bir mina qoyub ki...

Bəli, Rusiya özü "minalanmış sahə"dir. Ən gülməlisi isə bilirsiniz, nədir?

Kommunistlərin lideri G.Züqanov deyib ki, əgər İsa peyğəmbər özü sağ olsaydı, güman ki, bizimlə - kommunistlərlə olardı...

Təbii ki, bu, 1 may da sovuşacaq. Əslində təlaş üçün elə bir əsas da yox.

Sadəcə, Rusiyanı idarə edənlər səksəkəlidir. O ki qaldı İsa peyğəmbərin kommunistlərlə bir olmasına, kommunistləri deyə bilmərəm, amma İsa həmişə əzilənlərin və məzlumların yanında olub...

Burada mən Vatikanı, Papanı yada salardım. Harada kasıb məhəlləsi varsa, harada əzilən varsa, Papa ora gedir. Özü də bu, təkcə indi belə deyil. Papa İohann Pavel də belə edirdi...

Prinsipcə, bu, pravoslav kilsəsi üçün də görk ola bilər. Amma bu kilsə həmişə Rusiya imperiyasının yanında olub...

Yazının əvvəlini Rusiyaya qarşı qınaqla başlasam da bir fikirlə mən də razılaşıram - ruslar özləri əzabkeşdirlər... Ona görə ki, tarix boyu miraj arxasınca qaçıblar. Onlara elə gəlib ki, Rusiya nə qədər böyük olsa, bu, onlar üçün daha yaxşı olar... Amma Rusiya böyüdükcə, onlar kiçilib və bu böyüklüyün içində əziliblər...

İndi də təsəlliləri budur ki, Rusiya böyükdür, rus dövləti böyükdür. Amma bu böyük dövlət görün hansı sualın üstündə baş sındırır? Elə hey özlərinə bir sual verirlər: görən, 1 mayda - həm zəhmətkeşlərin həmrəylik, həm də pasxa günündə insanlar hara gedəcəklər? Kilsəyə, yoxsa mitinqə?

Kilsəyə getməkləri hökuməti elə də qorxutmur - ona görə ki, katolik və ya protestant kilsəsindən fərqli olaraq bu kilsə həmişə rusların deyil, elə rus imperiyasının yanında olub...

Biz isə durub Rusiyadan nəsə gözləyirik... Fəqət, nə etmək olar? İmperiyanın və onun nökərinin böyründə yaşayırıq. Bir daha Rusiyadan Qarabağ mövzusuna dönərək bilirsiniz, nəyə diqqət yetirmək istərdim?

S.Sarkisyan deyib ki, aprel döyüşlərindən dərhal sonra sülh təkliflərini qəbul etmək olmaz...

Niyə? Nə səbəbə? Bəlkə ona görə ki, bu vaxta qədər erməni cəmiyyətini o qədər radikal notlarda kökləyiblər ki, indi ona "Güzəşt etmək lazımdır!" deyə bilmirlər?

Və yaxud aprel döyüşlərindən sonra sülh təkliflərini qəbul etmək erməni cəmiyyətində bəlkə Azərbaycanın üstünlüyü fikrini yarada bilərdi?..



## Zülmdən (bəlkə də ölümdən) dönmüş jurnalistin vaqiəsi

**Samir SARI**

**Keçmiş əməkdaşımız Fərahim İlqaroğlunun Termişi soyadlı idmançı tərəfindən döyülməsinin ikinci ildönümündə az qala daha bir əməkdaşımızın qanı asfaltda qalacaqmış. Adamın həyatı bir kəlmə "budur"dan asılı olub. Bəxti gətirib ki, "budur" əvəzinə "o deyil" deyilib.**

Məsələ belə olub: jurnalist Mahir Məmmədli çörək almaq üçün marketə getmək istəyib. Blokdan yenicə çıxıbmış ki, qarşısını cip növlü avtomobildən düşən dörd iricüssəli, idmançı görkəmli gənc kəsib və jurnalistdən soruşublar ki, bayaq "Qismət" şadlıq evinin yanından gələn adam sənsənmi. Xoşbəxtlikdən Mahir əfəndi həmin gün "Qismət"in qabağından keçməyibmiş, ona görə də tərəddüd etmədən deyib ki, xeyr. Belə olanda gənclər kiməsə zəng vurublar və eyvana bir gənc qadın çıxıb, gənclər ona Mahiri göstərib soruşublar ki, budurmu. Xanım da deyib, xeyr, o deyil.

Məlum olub ki, ortada qadına sataşma vaqiəsi var və bunun axırı mütləq kiminsə ağız-burnunun partlamış-əzilmiş, şalvar-köynəyinin cırılmış halıyla bitməlidir. Mentalitet belə tələb edir.

Ya birdən küçədə qadına söz atan sapıq həqiqətən Mahir Məmmədliyə bənzəmiş olsaydı və qadın "hə, odur" desəydi, onda nə olacaqdı?

Heç nə. Yuxarıda dediyim haqq-hesab baş verəcəkdi. Hələ dörd iri cüssəli idmançı bir orta ağırlıqda olan 40 yaşlı jurnalisti şil-küt etməklə qurtarsalar, buna şükür etmək lazım gələcəkdi. Başqa cür də ola bilərdi. Məsələn, dalaq partlaması, qaraciyər dağılması, böyrək düşməsi və s.

Olayın sonrası da belə olacaqdı ki, jurnalisti döyənlər qaçıb aradan çıxacaqdılar. Jurnalistlər hay-küy salıb onları tapdıracaqdılar. Bu dəfə onların da havadarları dövriyyəyə girəcəkdilər və media quruluşlarının xəbərləri haçalanacaqdı. Bir dəstə həmkarımız laübalı şəkildə belə xəbərlər yazacaqdılar ki, jurnalistin döyülməsi peşə fəaliyyəti ilə bağlı olmayıb, ortada qadın söhbəti var.

Ahaaaa. Belə olanda artıq mediada yeni-yeni xəbər başlıqları görünəcəkdi: "Jurnalistin döyülməsinin şok səbəbləri -NAMUS MƏSƏLƏSİ"; "Qəzetçinin döyülməsində qadın izi - TƏFSİLAT"; "Mahir Məmmədlini intim məsələyə görə cəzalandırıblarmış - TƏFƏRRÜAT"; "Reportyoru döydürən qadın kimdir? - İLKİNC GƏLİŞMƏ"; "Mahir Məmmədlinin qətlini sifariş verən qadın axtarılır" və sair və ilaxır.

Bu arada ağır vəziyyətdə klinikada yatan həmkarımızın ağzına qaşıqla horra tökülməsi və sistem altında olması üzündən barəsində deyilənləri təsdiq-təkzib etməsi çətin olacaqdı, o, gücənib, hıqqanıb deyə bilməyəcəkdi ki, qardaşlar, məni səhv saldılar, bildiyiniz kimi deyil.

Lap jurnalist belə desəydi də, kimdir ona inanan. Hər kəsin bildiyi şeylər var: 1. Adamı durduğu yerdə döyməzlər; 2. Nəsə bir zibil işi olub ki, döyüblər.

Sosial şəbəkə camaatı da bu xüsusda ən azı iki qrupa bölünəcəkdi. Birinci qrup (jurnalistin həmkarları, keçmiş və indiki iş yoldaşları, tanışları və b.) onu müdafiə edəcəkdi, deyəcəkdilər ki, heç bir xüsusat adamın küçədə linç edilməsinə haqq qazandırmır, dövlət var, qanunlar var.

İkinci qrup (Mahirin və işlədiyi media orqanlarının düşmənləri) jurnalistin döyülməsinə haqq qazandıracaqdılar, statuslar yazacaqdılar ki, yaxşı eləyib döyüblər, gərək öldürüb ölüsünü qoyaydılar. Feministlər qadına sataşan bütün sapıqların aqibətinin belə olmasına dair arzularını bildirəcəkdilər.

Elə bilirsiniz, iş bununla bitəcəkdi? Xeyr. Əgər ağzına tökülən horralar jurnalistə şəfa verməsə və o, dünyasını dəyişəsi olsa, bəzi siyasi qruplar "rejim daha bir jurnalisti öldürdü" məzmunlu bəyanat verəcəkdilər. Hətta ola bilərdi ki, dəfndən qabaq jurnalistin cənazəsini götürüb şəhərdə dövrə vurmaq təklifi də səslənsin.

Əlbəttə, həmkarımızın döyüldüyü blokun ağzında 40 ədəd şam yandırmaq ideyası müsbət həll ediləcəkdi. Rəhmətliyin badə yoldaşları yığışıb onun xatirəsini bir dəqiqəlik sükutla, iki saatlıq ziyafətlə və litrlik araqların boşaldılmasıyla anacaqdılar.

Xülasə, gündəm dəyişəcəkdi. Bu mövzuda 47-si anıt köşəsi olmaqla yüzlərlə yazı yazılacaqdı.

Bir müddətdən sonra hər şey növbəti jurnalistin döyülməsinə qədər unudulub gedəcəkdi.

Bəlkə də sonradan o balkondakı yandırıb-yaxan qadın küçədə köhnə sapıqla rastlaşanda barmağını dişləyəcəkdi ki, bay, deyəsən, uşaqlar yanlış adamı öldürüblər.

## Tağı Əhmədovun susqunluğunun sirri bilindi

### "Yeraltı dünya"nın sabiq rəisi 3 milyon manat haradandır sualına cavab vermək istəmirmiş

**Eldar Mahmudov çetesinin başçılarından olan Akif Çovdarovun Bakı Metropoliteninin keçmiş rəisi Tağı Əhmədovdan təhdid yolu ilə 3 milyon manat alması haqda iddialar mətbuat səhifələrindən düşmür. Tağı Əhmədov bu mövzu ətrafında susqunluq nümayiş etdirməklə, jurnalistlərin suallarını dinləyib telefonunu qapatmaqla barəsindəki iddia ətrafında müzakirələri gücləndirmiş olur.**



Bununla yanaşı, hər ötən gün iddiaya yeni çalarlar qatılır. Artıq iddianın gercək kimi qəbul edilməsi üçün də kifayət qədər əsaslar yaranıb. Azı ona görə ki, oxucu Tağı Əhmədovun susqunluğunu razılıq əlaməti kimi qəbul etməyə başlayıb. Yəni Tağı Əhmədovun Akif Çovdarovun təhdidləri qarşısında geri çəkildiyi və onu 3 milyon manat xərac verdiyi gerçəklik kimi qəbul edilir.

Bu durum həm də Tağı Əhmədovun hansı səbəbdən Akif Çovdarovun təhdidindən çəkindiyi, niyə bu barədə "yuxarılar"a məlumat vermədiyi sualını doğur. Belə ehtimallar var ki, Akif Çovdarovda Tağı Əhmədovun "yeraltı dünya"sındakı qaranlıqların üzərinə işıq salacaq çox ciddi kompromatlar olub. Həmin kompromat məlumatların ortalığa çıxmasını isə Bakı Metropoliteninin keçmiş rəisi heç istəməyib. Odur ki, Akif Çovdarovu 3 milyon manat varlı edib.

"Azadlıq" qəzeti bu mövzu ilə bağlı yazır ki, Tağı Əhmədovla prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov dost olub. Ən azı onun vasitəsilə vəziyyətdən çıxa, Akif Çovdarovun kompromatlarını bir kənara tullamağa bəs edəcək göstərişin verilməsinə nail ola bilərdi. Bəs Tağı Əhmədov niyə dostuna müraciət etməkdənsə 3 milyonu ödəmək qərarı verib?

Qəzet bu xüsusda yazır ki, Əli Əsədov keçmiş MTN şefi Eldar Mahumdovun yaxın qohumudur. Hətta bəzi iddialara görə, Eldar Mahmudovun nazir təyin olunmasında Əli Əsədovun da mühüm rolu olub. Bu halda sual olunur: Nədən Əli Əsədov və Mais Mehdiyev Tağı Əhmədova yardım etməyib? Axı Əli Əsədovun Eldar Mahmudova bir xahişi bəs edərdi ki, Akif Çovdarov Tağı Əhmədovdan əl çəksin.

Bəzi iddialara görə, MTN-də Bakı Metropolitenində böyük yeyintilər barədə ciddi faktlar olub. Mümkündür ki, Tağı Əhmədov da bu faktlarla şantaj edilib. Bu halda Bakı Metropoliteninin keçmiş rəisinin "yuxarılar"a şikayət etməsi onun həbsi ilə də nəticələnə bilərdi. Ona görə də Tağı Əhmədov ona kəsilən "xərac"ı ödəməklə canını qurtarmağa çalışıb".

Bundan başqa, bu mövzuda elektron mediada yer alan yazıların şərh bölümlərində Tağı Əhmədovun 3 milyon manatı haradan alması da geniş müzakirə mövzusudur. Hazırda YAP-ın Yasamal şöbəsinin sədri olan Tağı Əhmədovun susqunluğunun məhz bu suala aydınlıq gətirmək istəməməsindən qaynaqlandığı iddia edilir.

### "3 milyon Tağı Əhmədov üçün "tum pulu"dur"

**İqtisadçı Rövşən Ağayev özünün feysbuk səhifəsində bu mövzuya maraqlı münasibət bildirib.**

**İqtisadçı yazıb:** "Metopolitenin keçmiş rəisi Tağı Əhmədovun keçmiş MTN-çilərə 3 milyon manat rüşvət verməsinə deyəsən təccüblənənlər də var. Ki, bəs bu qədər pulu kişi "dəmir relslər"dən necə çıxarırmış. Əgər istənilən dövlət müəssisəsinin (şirkətinin) əlində yüz milyonluq dövriyyəsi varsa, 3 milyon həmin müəssisənin rəhbərinin "tum pulu"dur. 2007-2013-cü illər Əhmədovun ən böyük pul dövriyyəsinə sərəncam verdiyi illərdi. Həmin dövrdə dövlət büdcəsindən metro tikintisinə 1 milyard 250 milyon manat, subsidiya kimi təxminən 100 milyon manat ayrılıb - bu, orta hesabla ilə 192 milyon manat deməkdir. Amma iş bununla bitmir - metronun özünün də illik gəlirləri var. Hələ Tağı müəllimin dövründə - metroda gediş haqlarının artmadığı vaxtlarda məlumatlı şəxslərdən aldığımız məlumat əsasında belə bir təqribi qiymətləndirmə aparmışdıq ki, metropolitenin gediş haqlarından, ticarət obyektlərindən topladığı haqlardan və reklam haqlarından gəlirləri 60-70 milyon manatdan az deyil. Yəni Tağı müəllim 7 il ərzində ən azı 250-260 milyon manata sərəncam verən səlahiyyətli şəxs olub. Dövlət vəsaitləri üzərində effektiv ictimai və rəsmi nəzarət mexanizmlərinin olmadığı şəraitdə 250 milyondan nə qədər qazanmağın mümkünlüyünü təsəvvür etmək belə çətin..."

❑ **E.HÜSEYNOV**

## "Hafka"nın bağlanan bankında batan əmanətlər....

### Vaqif Əsədovun da əmanətinin batdığı deyilən "Bank of Azerbaijan"ın binası artıq ofis kimi istifadə edilir

**Lisenziyası ləğv edilən "Bank of Azerbaijan" ASC-nin baş ofisində bankın sahibi, iş adamı Hafiz Məmmədovla Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədov arasında da mübahisə olması və tərəflər arasında vəziyyətin gərginləşməsi haqda xəbərlər yayılıb.**




Bildirilir ki, Vaqif Əsədov "Hafka" ləqəbli iş adamının bankına qoyduğu əmanətini uzun müddətdir ki, geri ala bilmir. Bir neçə dəfə bankın yolunu tutan və iş adamı ilə görüşən V.Əsədov məsələnin həllinə nail ola bilməyib. Sonuncu görüş isə digərlərinə nisbətən gərgin keçib. V.Əsədov get-gələ salınmasına etiraz edərək pulunun geri qaytarılmasını tələb edib.

V.Əsədov musavat.com-a açıqlamasında yazılanlara münasibət bildirərkən bu cür hadisənin baş vermədiyini və həmçinin Hafiz Məmmədov adlı iş adamını tanısa da onunla heç vaxt görüşmədiyini deyir. Yayılan məlumatların həqiqəti əks etdirmədiyini deyən V.Əsədov hər hansı bir banka qoyacaq qədər əlavə pulunun olmadığını da əlavə edir.

Hadisənin təfərrüatları ilə bağlı əlavə məlumat öyrənmək üçün bankın Həsən Əliyev 24 ünvanında yerləşən baş ofisinə yollanıq. Baş ofisin qapıları müştərilərə deyil, ancaq işçilərə açıq idi. 4 mərtəbəli binanın bir hissəsi ofis kimi istifadə olunur. Binanın avtomobil saxlamaq üçün nəzərdə tutulan hissəsi də bağlı idi.

Əvvəlcə yaxınlıqdakı taksi sürücüləri ilə söhbət edib yuxarıda qeyd etdiyimiz hadisəyə şahidlik edib-etmədiklərini öyrənməyə çalışdıq. Taksi sürücüləri V.Əsədovu bankın baş ofisinə gələn görsələr də, hadisə ilə bağlı əlavə məlumatları olmadıqlarını dedilər. Onlar V.Əsədov və iş adamı arasındakı pul qalmaqalı ilə bağlı mətbuatda yazılanları bizdən maraqla dinlədilər.

Bankdan baş verənlərlə bağlı rəsmi məlumat öyrənə bilmədik. Kənar şəxslərin girişi qadağan olan binaya nəzarət edən şəxs də bu məsələdən xəbərsiz olduğunu dedi.

Qeyd edək ki, bankda əmanəti olan xeyli sayda insan var. Onlar da V.Əsədov kimi öz əmanətlərinin geri qaytarılmasını tələb edirlər. Lakin bankın qarşısında gözlədiyimiz müddət ərzində əmanətçi görə bilmədik. Mühafizə xidmətinin əməkdaşı bildirdi ki, müştərilər nadir hallarda, əsasən də həftənin ilk iş günü banka gəlirlər. Rəsmi şəxslərdən məlumat öyrənə bilməsək də nəzarətçi bəzi müştərilərin əmanətlərini geri ala bildiyini də söylədi. Həmin müştərilər isə banka az əmanət qoyanlar olub.

V.Əsədov iş adamının bankına əmanət qoymadığını desə də musavat.com-a DYP rəmsisinin bankda batan əmanətinin nə qədər olması ilə bağlı məlumat daxil olub. Məlumata görə, V.Əsədov 500 min manatdan çox əmanətini "Bank of Azerbaijan"a yatırıb. Lakin indi əmanətini geri ala bilmir.

Xatırladaq ki, bankın lisenziyası bu ilin əvvəlində ləğv edilib. Mərkəzi Bankın İdarə Heyətinin 18 yanvar 2016-cı il tarixli, 4 nömrəli qərarı ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olduğuna, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Bank of Azerbaijan" ASC-nin bank lisenziyası ləğv edilib.

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 18.01.2016-cı il tarixdən banka müvəqqəti inzibatçı təyin edilib. Mərkəzi Bank "Bank of Azerbaijan" ASC-də Əmanətlərin Sığortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişini həyata keçirəcəyi haqda da məlumat yaymışdı.

❑ **İ.MURADOV**